QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 177 (5897) **27 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# "Neft və qaz sahəsindən asılılığın azaldılması əsas prioritetlərimizdəndir"

*Prezident İlham Əliyev Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

3

**Əli Əhmədov: "Artıq Ermənistan tərəfinin bütün arqumentləri tükənib"**



3

**YAP Abşeron rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib**



12

**Fuad Qəhrəmanlı hansı günahını etiraf etdi- MƏHKƏMƏ**



# “Neft və qaz sahəsindən asılılığın azaldılması əsas prioritetlərimizdəndir”

*Prezident İlham Əliyev Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Beynəlxalq Maliyyə Korporasiyasının iqtisadiyyat və özəl sektorun inkişafı üzrə vitse-prezidenti Hans Piter Lankesin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev bildirib ki, neft və qaz sahəsindən asılılığın azaldılması əsas prioritetlərimizdəndir:***

-Xoş gəlmisiniz, sizi görməyə şadam. Mənə verilən məlumata görə, siz Azərbaycan Respublikası Dövlət Neft Fondunun 20 illik yubileyinə həsr olunmuş konfransda iştirak edirsiniz. Bu, bizim əməkdaşlığımızın yaxşı göstəricisidir. Bildiyiniz kimi, ötən 20 il ərzində bizim Neft Fondumuz Azərbaycanın inkişafı üçün çox vacib vasitə rolunu oynayıb. Bununla yanaşı, Fond dünyanın ən şəffaf suveren fondlarından biri kimi BMT tərəfindən mükafata layiq görülüb. Bu Fondun Azərbaycanın inkişafında və sosial problemlərin həllində rolu olduqca böyükdür. Bildiyiniz kimi, Fondun aktivləri hesabına biz qaçqın və məcburi köçkünlər üçün 100-dən artıq qəsəbənin tikintisini maliyyələşdirmişik. Azərbaycan Respublikası Dövlət Neft Fondu insan kapitalına, təhsilə və infrastruktura sərmayə yatırıb. Sizin konfransda iştirakınız da yaxşı göstəricidir. Bildiyimə görə, sizin təsisat vasitəsilə də 250 milyon dollar həcmində sərmayə qoyulub.

Bizim əməkdaşlığımızın çox yaxşı və uğurlu tarixçəsi var. İqtisadiyyatımızın şaxələndirilməsi və dayanıqlı iqtisadi inkişaf üçün zəminin yaradılması planlarını nəzərə alaraq gələcək inkişaf üçün də yaxşı perspektivlər mövcuddur. Neft və qaz sahəsindən asılılığın azaldılması əsas prioritetlərimizdəndir. Əlbəttə, bunu bir günün içində etmək mümkün deyil, ancaq şaxələndirmə və iqtisadiyyatın müasirləşdirilməsi bizə bu asılılığın böyük dərəcədə aradan qaldırılmasına imkan verəcək. Əlbəttə, bildiyiniz kimi, biz biznes mühitinin yaxşılaşdırılmasına mühüm önəm veririk. Fərəhləndirici haldır ki, Dünya Bankının “Doing Business” hesabatına görə, biz dünyanın 10 ən islahatçı dövləti sırasına daxil olmuşuq. Bununla bağlı nail olduğumuz sürətli inkişaf bizim bu sahəyə çox ciddi yanaşmamızın nəticəsində mümkün olub. Bildiyiniz kimi, biz bu məqsədlə xüsusi komissiya yaratmışıq. Həmin komissiya çatışmazlıqları aradan qaldırmaq və vəziyyəti yaxşılaşdırmaq üçün hansı işlərin görülməli olduğunu ətraflı təhlil edib. “Doing Business” hesabatına görə, ümumən, 25-ci yerdə qərarlaşmaq iftixar hissi doğurur. Ancaq ən əhəmiyyətlisi odur ki, bu, biznes mühitinə və Azərbaycanın qeyri-enerji sahəsində inkişafına müsbət təsir göstərir. Gələcək prioritetlərimizə gəldikdə, hesab edirəm ki, insan kapitalı, qeyri-neft sektoru, təhsil, kənd təsərrüfatı, turizm, kiçik və orta sahibkarlığın dəstəklənməsi bizim əməkdaşlığımızın prioritetləri sırasındadır. Əminəm ki, səfəriniz çərçivəsində siz artıq bizim rəsmi şəxslərlə təmaslarınızda gələcəkdə görüləcək işlər barədə müzakirələr aparmısınız. Bir daha Azərbaycana xoş gəlmisiniz.

Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidenti Hans Piter Lankes:

-Qəbula görə təşəkkür edirəm. Səfərimizin əsas məqsədi Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə birgə keçirdiyimiz tədbirdir. Dövlət Neft Fondu bizim uzunmüddətli yaxın tərəfdaşımızdır. Zənnimizcə, bu Fond peşəkarcasına idarə olunan fondlardan biridir və biz bu əlaqələrimizə böyük önəm veririk. Konfransın mövzusu “Müsbət təsirli investisiya”dır. Beynəlxalq Maliyyə Korporasiyası da bu məsələyə önəm verir və mövzunun çox aktual olduğunun şahidiyik. Azərbaycan Respublikası Dövlət Neft Fondunun özünəməxsus sərmayə strategiyasına malik olması rəmzi məna daşıyır. Bir sözlə, çox yaxşı münasibətlərimiz mövcuddur.

Görüşdə Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanla əməkdaşlığının perspektivləri, iqtisadiyyatın şaxələndirilməsi, şəhər və kənd yerlərində yeni iş yerlərinin yaradılması, biznes mühitində qazanılmış uğurların daha da möhkəmləndirilməsi, özəl sektora birbaşa xarici investisiyaların cəlb olunması məsələləri müzakirə edildi.

## “Azərbaycanda əsrlər boyu müxtəlif etnik və dini qrupların nümayəndələri dostluq, əmin-amanlıq şəraitində yaşayıblar”

Prezident İlham Əliyev respublikamızın yəhudi əsilli vətəndaşlarını onların yeni il bayramı Roş-Ha-Şana münasibətilə təbrik edib.

Dövlətimizin başçısı təbrikdə bildirib ki, bu gün dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınan Azərbaycanda əsrlər boyu müxtəlif etnik və dini qrupların nümayəndələri, o cümlədən yəhudilər dostluq, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşayıb, heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmadan milli-mədəni və dini dəyərlərini günümüzədək qoruyub saxlayıblar.

Prezident İlham Əliyev qeyd edib ki, cəmiyyətimizin ayrılmaz hissəsi olan yəhudi icması əsl vətəndaşlıq və Azərbaycançılıq mövqeyindən çıxış edərək respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində və ictimai-siyasi proseslərdə fəal iştirak edir. Azərbaycan Prezidenti əmin olduğunu bildirib ki, yəhudi əsilli həmvətənlərimiz bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da çiçəklənməsi üçün səylərini əsirgəməyəcəklər.

“Hər il təntənə ilə qeyd olunan Roş-Ha-Şana yeniliyi, mənəvi saflığı və xeyirxahlığı təcəssüm etdirir. Qoy bu bayram hamınızın həyatına xoş ovqat, ailələrinizə səadət və sevinc gətirsin”, - deyə Prezident İlham Əliyev təbrikdə bildirib.

## Baş Nazir Dünya Bankının regional direktoru ilə görüşüb

***Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov sentyabrın 26-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molenös ilə görüşüb. SİA xəbər verir ki, Baş Nazir Novruz Məmmədov Dünya Bankı ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirib, son illər bu münasibətlərin daha da inkişafından məmnunluğunu ifadə edib.***



Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Bankının Baş icraçı direktoru ilə cari ilin yanvarında Davosda keçirdiyi görüşü xatırladan Novruz Məmmədov həmin görüşdə əməkdaşlığını inkişaf perspektivlərinə dair fikir mübadiləsinin aparıldığını vurğulayıb.

Bu günə qədər Azərbaycan ilə Dünya Bankı arasında 50-yə yaxın layihənin reallaşdırıldığını qeyd edən Baş Nazir deyib: “Biz birgə çox önəmli layihələr üzərində işləmişik. Bu layihələrin uğurla reallaşmasında Dünya Bankının və onun regional direktorunun çox önəmli rolu olub. Əminəm ki, əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək”. Söhbət zamanı Dünya Bankı ilə Azərbaycan arasında kənd təsərrüfatı, təhsil, səhiyyə sahələrində əməkdaşlığın perspektivlərinə, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində infrastruktur layihələrinin icrasının dəstəklənməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## YAP Abşeron rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib



Sentyabrın 26-da Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədovun sədrliyi ilə Yeni Azərbaycan Partiyası Abşeron rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrlərinin müşavirəsi keçirilib. Müşavirədə AMEA-nın Prezidenti, YAP-ın Sədr müavini Akif Əlizadə, YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Abşeron rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova və başqaları iştirak ediblər.



Müşavirəyə Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə start verilib. Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, bu tədbirin keçirilməsində məqsəd partiyanın yerli strukturlarının işinin daha da gücləndirilməsi ilə əlaqədardır: "YAP 750 minə yaxın Azərbaycan vətəndaşını öz sıralarında birləşdirir. Bu əhəmiyyətli siyasi ordu kimi də səciyyələndirilə bilər. Bu sadəcə bir statistika deyil. Bu böyük bir güc və böyük bir iradədir. Eyni zamanda bu Azərbaycan vətəndaşlarının YAP-a, Ümummilli Lider Heydər Əliyevin ideyalarına və Azərbaycan Prezidenti, partiyamızın Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətə münasibətin ifadəsidir".

Baş nazirin müavini bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və partiyamızın bu seçkilərə hazırlığı məsələləri haqqında fikirlərini bildirib. O, Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib.

Baş nazirin müavini Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini, iqtisadiyyatın artması, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını söyləyib.

Əli Əhmədov deyib ki, Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq. Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən YAP Sədrinin müavini ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib. Bununla belə, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrdən biri də sosial şəbəkələrdir. Onun sözlərinə görə, xaricdə özünü "mühacir" adlandıranlar müəyyən qüvvələrin maraqlarına xidmət edərək ölkəmizin, dövlət rəhbərliyinin imicinə zərbə vurmağa çalışırlar. Müşavirədə bələdiyyə seçkilərinə hazırlıq və ictimai-siyasi məsələlərlə bağlı tövsiyyə və tapşırıqlar verilib.

## Əli Əhmədov: "Artıq Ermənistan tərəfinin bütün arqumentləri tükənib"



"Azərbaycan hərbi qulluqçusunun qətlə yetirilməsinə görə, Ermənistan tərəfini qəti şəkildə qınayırıq. İlk dəfə deyil ki, iki tərəf arasında danışıqlar ərəfəsində Ermənistan bu və ya digər formada təxribatlar törədir". SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov deyib.

O bildirib ki, məqsəd danışıqlar prosesinə ziyan vurmaq, ümumiyyətlə, danışıqların pozulmasına nail olmaqdır: "Artıq Ermənistan tərəfinin bütün arqumentləri tükənib. Onlar çalışırlar ki, müxtəlif təxribatlar törətməklə, o cümlədən insanların tələf olması kimi cinayətləri törətməklə danışıqlar pozsunlar. Beləliklə də status-kvonun ömrünü uzatmağa çalışsınlar. Beynəlxalq ictimaiyyət bunu kəskin surətdə tənqid edir. Azərbaycan tərəfi dəfələrlə qəti şəkildə bəyan edib ki, münaqişənin dinc yolla həllinin tərəfdarıdır. Amma bu şərtlə ki, münaqişənin həll olunması üçün Ermənistan tərəfi konstruktiv mövqe nümayiş etdirsin. Əgər onlar belə mövqeni bundan sonra da davam etdirsələr, Azərbaycan öz təbii hüququndan istifadə edərək və malik olduğu möhtəşəm gücə arxalanaraq, ərazi bütövlüyünü təmin etmək üçün ən təsirli tədbirlərini görəcək".

Baş nazirin müavini qeyd edib ki, ATƏT-in Minsk qrupu yumşaq şəkildə desək, öz missiyasını həyata keçirmək üçün lazımi fədakarlığı göstərə bilmir.

***Ceyhun Rasimoğlu***

## Əli Əhmədov Xırdalan şəhərində Qarabağ müharibəsi əlillərindən ibarət "Ambutant" futbol klubunun üzvləri ilə görüşüb



Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP-ın Sədr müavini- İcra katibi Əli Əhmədov Xırdalan şəhərində Heydər Əliyev Mərkəzində Abşeron rayonunun Qarabağ müharibəsi əlillərindən ibarət "Ambutant" futbol klubunun üzvləri ilə görüşüb.

Görüşdə Əli Əhmədov Azərbaycan dövlətinin Qarabağ müharibəsi əlillərinə və veteranlarına göstərdiyi qayğıdan bəhs edib və onların daim Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu söyləyib. Görüşdə Qarabağ müharibəsi əlilləri göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını ifadə ediblər. Daha sonra "Ambutant" futbol klubunun uğurları haqqında məlumat verilib. Sonda xatirə şəkli çəkdirilib.



# Nyu-Yorkda Azərbaycan və Gürcüstan Xarici İşlər nazirlərinin görüşü olub

***Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Gürcüstanın Xarici İşlər naziri David Zalkaliani ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə nazirlər iki ölkə arasında mehriban qonşuluq şəraitində inkişaf etdirilən qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərinin məmnunluq doğurduğunu ifadə ediblər.***

Nazirlər bölgədə sülh, təhlükəsizlik və dayanıqlı inkişafa ciddi hədə təşkil edən həlli uzadılmış münaqişələrin sülh yolu ilə həlli istiqamətində səylərin gücləndirilməsinin vacibliyini vurğulayıblar. Nazir David Zalkaliani Gürcüstanın Abxaziya və Tsxinvali/Cənubi Osetiya bölgələrindəki münaqişənin həlli üzrə aparılan danışıqlardakı vəziyyət barəsində məlumat verib. Öz növbəsində nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Nyu-Yorkda ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Xarici İşlər nazirləri arasında keçirilən görüş barədə həmkarını məlumatlandırıb. Tərəflər münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri, dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət və ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini bir daha vurğulayıblar.



Nazirlər Azərbaycan və Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə müvafiq Dövlət Komissiyalarının fəaliyyəti barədə fikir mübadiləsi aparıblar və dövlət sərhədinin delimitasiyasının qısa müddətdə yekunlaşmasında maraqlarını ifadə ediblər.

Tərəflər, həmçinin "Azərbaycan-Gürcüstan-Türkiyə" üçtərəfli platforması çərçivəsində əməkdaşlığın genişləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparıblar. GUAM çərçivəsində əməkdaşlıq məsələlərini nəzərdən keçirən nazirlər BMT Baş Assambleyasının cari sessiyası çərçivəsində keçiriləcək GUAM Xarici İşlər nazirlərinin görüşünə dair məsələləri müzakirə ediblər. Görüş əsnasında, həmçinin qlobal təhlükəsizlik gündəliyindəki bir sıra məsələlər üzrə fikir mübadiləsi aparılıb.






# Yeni Azərbaycan Partiyasının Abşeron rayon təşkilatının gəncləri ilə görüş keçirilib

***Sentyabrın 26-da Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - İcra katibi Əli Əhmədov Xırdalan şəhərində YAP Abşeron rayon təşkilatının gənc fəalları ilə görüşüb. Əvvəlcə Baş nazirin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov Abşeron rayonu Xırdalan şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçək dəstələri düzüb.***

Görüşdə AMEA-nın prezidenti, YAP Sədrinin müavini Akif Əlizadə, YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov və Abşeron rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova iştirak ediblər.

Heydər Əliyev Mərkəzində keçirilən görüşü açan Abşeron rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova gənclərin rayonun ictimai-siyasi həyatında, eləcə də quruculuq işlərində yaxından iştirak etdiyini bildirib.

Tədbirdə çıxış edən Baş nazirin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov bildirib ki, Azərbaycan gəncliyi cəmiyyətimizin aparıcı qüvvəsini təşkil edir. O söyləyib ki, bu gün Azərbaycan hökumətinin əsas məqsədi gənc nəslin arzuladığı cəmiyyəti onlara təqdim etməkdir. Bu ümumi məqsədə nail olmaq üçün var gücümüzlə çalışırıq. Bunun üçün də gənc nəslin daha yaxşı təhsil alması və zəngin biliklərə yiyələnməsi tələb olunur. Yaxşı yaşamağın, cəmiyyətin layiqli vətəndaşı olmağın yeganə yolu zəngin, etibarlı, dərin biliklərə yiyələnməkdir. Baş nazirin müavini deyib: "Ölkədə gənclərin yaxşı təhsilə sahib olmaları üçün bütün imkanlar yaradılıb. Son illər Azərbaycanda təhsil sahəsində böyük islahatlar həyata keçirilir. İnanırıq ki, Azərbaycanın gələcəyi daha parlaq olacaq. Çünki bu parlaq gələcəyi yaratmağa qadir olan çox ləyaqətli gənclərimiz yetişib. Onlar gələcəkdə Ulu Öndər Heydər Əliyevin ideyalarını, eləcə də Onun layiqli davamçısı olan Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirləri layiqincə davam etdirmək potensialına malikdirlər".

Görüşdə Əli Əhmədov müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu ilə bağlı tələbə-gənclərə geniş məlumat verib, uğurlu siyasət nəticəsində ölkəmizi daha firavan gələcək gözlədiyini diqqətə çatdırıb.







Müstəqilliyimizin ilk illərindən danışan Əli Əhmədov deyib ki, 1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, infilyasiyanın səviyyəsi 1600 faizə çatmışdı, ölkədə xaos, anarxiya baş alıb gedirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə xalqımız nicat yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Həmin dövrdə Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran Əli Əhmədov Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib. Baş nazirin müavini qeyd edib ki, Ulu Öndərin işləyib hazırladığı müasir, müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" isə ölkəmizin inkişafında mühüm rol oynadı. Belə ki, Ümummilli Liderimizin müəllifi olduğu neft strategiyası Azərbaycanın hərtəfli inkişafının bünövrəsini təşkil edir.

YAP Sədrinin müavini söyləyib ki, bu gün Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini, iqtisadiyyatın artması, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını söyləyib.

Əli Əhmədov bildirib ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Bu mənada əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir. Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları ilə ölkəmizdə əməkhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş nazirin müavini qeyd edib ki, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir. Onun sözlərinə görə, hər bir ailə bu artımlardan faydalanır. Əli Əhmədov deyib ki, Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq. Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə gəlincə, Baş nazirin müavini deyib ki, Azərbaycan münaqişənin sülh yolu ilə həllinin tərəfdarıdır. Onun sözlərinə görə, işğalçı Ermənistan münaqişənin həllini uzatmağa çalışır: "Azərbaycanın güclü ordusu var və torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Beynəlxalq hüquq da bizim tərəfimizdədir. Amma dövlətimiz qan tökülməsini istəmir. Çünki müharibə insan itkisi, dağıntı, fəlakət deməkdir. Ona görə də, sülh imkanları tükənməyibsə, bu imkanlardan sona qədər istifadə olunmalıdır. Əlbəttə ki, sülh danışıqları nəticə verməsə, Azərbaycan dövləti öz torpaqlarını işğaldan azad etmək haqqından istifadə edəcək".

Azərbaycanın dünyanın ən uğurlu gənc dövlətlərindən biri olduğunu deyən Əli Əhmədovun fikrincə, bugünkü gənclik müstəqil, güclü Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur. O, gəncləri ictimai həyatda da fəal olmağa çağırıb. Çünki gənclər cəmiyyətin aparıcı qüvvəsi kimi cəmiyyət həyatında mühüm rol oynayırlar. Yeni Azərbaycan Partiyasının qapıları da gənclərimiz üçün həmişə açıqdır.

Bununla belə, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir. Onun sözlərinə görə, xaricdə özünü mühacir adlandıranlar müəyyən qüvvələrin maraqlarına xidmət edərək ölkəmizin, dövlət rəhbərliyinin imicinə zərbə vurmağa çalışırlar. YAP Sədrinin müavini vurğulayıb ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdırlar. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır. Gənclər bu prosesdə fəal iştirak etməlidirlər.

Görüşdə çıxış edən AMEA-nın prezidenti, YAP Sədrinin müavini Akif Əlizadə Azərbaycanın gələcəyinin parlaq olduğunu bildirib. Çünki ölkəmizdə sağlam, vətənpərvər, intelektual gənc nəsl formalaşıb. O, son illər gənclərin elm sahəsinə marağının artmasını da yüksək qiymətləndirib. Görüşdə çıxış edən gənclər də ictimai-siyasi proseslərlə bağlı fikirlərini bildiriblər.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, sentyabrın 26-da Mingəçevir şəhəri, Ağdaş, Hacıqabul, Kürdəmir və Qazax rayonunun sakinləri ilə görüşüblər.***



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerindəcə həll edilib. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifah halının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlətimizin başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlanıb və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunacaq. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi, ümumilikdə, 4,2 milyon vətəndaşı əhatə edəcək. Minimum pensiya 72 faiz artırılıb. Beləliklə, ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə, 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid olan insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. Bunun nəticəsində yanvarın 1-dən heç bir bürokratik əngəl olmadan 13 min nəfərə pensiya təyin olunub. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi də bundan yararlana biləcək.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb. Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Bilal Dündar: "Soğoman Tehliryana Yerevanda abidənin ucaldılması ümumtürk düşmənçiliyinin davamıdır"



Birinci Dünya müharibəsi dövründə düşmənlərimizlə əlbir olaraq Osmanlı dövlətinə xəyanət edən ermənilər sonrakı illərdə qəhrəman övladlarımızı qətlə yetirdilər. Dövlət və siyasi xadimlərimiz məqsədli şəkildə erməni terrorunun hədəfinə çevrildi. Bütün bunlar azmış kimi dünya ictimaiyyətini aldatmaq üçün dondan-dona girdilər. Özləri haqqında "əzabkeş" obrazı yaratmağa çalışdılar.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar deyib.

Osmanlı dövlətinin Baş Naziri Tələt Paşanın qatili olan erməni terrorçu Soğoman Tehliryana Yerevanda abidənin ucaldılmasını ümumtürk düşmənçiliyinin davamı kimi dəyərləndirən B.Dündar diqqətə çatdırıb ki, sözügedən abidənin quruluşunda Tələt Paşanın şəxsiyyətinin təhqir olunması, əslində müasir dünyada bütün humanizm prinsiplərinə qarşı bir həqarətdir. Dərnək sədri qeyd edib ki, Tələt Paşanın qətlindən təxminən 100 il sonra belə bir abidənin ortaya çıxması bir daha təsdiq edir ki, dünyadakı havadarlarına güvənən ermənilər bizimlə sülh şəraitində yaşamaq niyyətindən çox uzaqdırlar. Azərbaycan torpaqlarının işğalı, bir milyondan çox azərbaycanlının öz dədə-baba yurdundan didərgin salınması bu düşmənçiliyin nümunələrindəndir. Azərbaycanın işğal altında olan torpaqları azad edilməyənə, təcavüzkar Ermənistan tərəfi Xocalı soyqırımını tanımayana qədər Ermənistanla sülh məsələsi Türkiyədə mövzu ola bilməz.

# "Gələn ildən ilk 4 il ərzində intensiv meyvə bağlarının hər hektarına görə fermerlərə yüksək əmsalla subsidiya veriləcək"



Azərbaycanda 2020-ci ildən başlayaraq ilk 4 il ərzində intensiv meyvə bağlarının hər hektarına görə fermerlərə yüksək əmsalla subsidiya veriləcək. Aqrar Subsidiya Şurası ayrı-ayrı meyvələr üçün əmsalları açıqlayıb. Şuranın bu qərarı 2019-cu ildən salınmış intensiv meyvə bağlarına şamil edilir. Beşinci ildən başlayaraq, intensiv bağlar məhsula düşdükdən sonra subsidiyanın əmsalı dəyişəcək.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov AZƏRTAC-a bildirib ki, intensiv meyvə bağı dedikdə, damcı suvarma sistemi ilə təmin olunmuş, 1 hektara müəyyənləşmiş sayda (məsələn, alma, armud, gilas, gavalı, şaftalı, ərik, alça, badam bağlarında minimum 650 ədəd) vegetativ calaqaltı tingin əkildiyi bağlar nəzərdə tutulur. "Aqrar Subsidiya Şurası 2019-cu ildən əvvəl salınmış intensiv meyvə bağlarına və intensiv olmayan meyvə bağlarına əkin subsidiyasını 1,2 əmsalla ödəyəcək. Bu kateqoriya bağların hər hektarına görə fermerlərə hər il 240 manat subsidiya veriləcək. Subsidiya verilməsi üçün intensiv olmayan meyvə bağlarının hər hektarında ən azı 90 ting əkilməsi şərtdir", - deyə şöbə müdiri əlavə edib.

# "Əli Kərimli və trolları şiddətə və sadizm olayına dəstək göstərirlərsə..."

***"AXCP sədri Əli Kərimlinin hakimiyyətə qarşı uğursuz iddiaları, xüsusilə trolluq məsələsini önə atması ilk növbədə belə qənaətə gəlməyə zəmin yaradır ki, bu adam sırf manipulyasiya cəhdləri vasitəsi ilə partiyasında, eləcə də ətrafında baş verən məlum olayları ictimai rəydən yayındırmağa çalışır". Bu fikirləri Olaylar.az-a "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzuya münasibətini açıqlayarkən deyib.***



Onun sözlərinə görə, Əli Kərimlinin özü də daxil olmaqla, onun trol şəbəkəsi ölkədə "aparıcı müxalifət" imicini göstərmək üçün bilavasitə öz maraqlarını güdür, sosial şəbəkələrdə müxtəlif kampaniyalar təşkil edir, ayrı-ayrı şəxsləri hədəfə alır, onların üzərində dezinformasiya xarakterli, şərh-böhtançılıq oyunları oynamağa çalışır. SİTAT: "Gəlin bunların demokratiya pərdəsi altındakı davranışlarını daha dərindən təhlil edək və görək ki, sözdə demokratiyanın carçısı olan Ə.Kərimlinin virtual müxalifətçiliyi ona daha nə verir? İlk növbədə, sağlam düşüncəli və siyasətlə maraqlanan istənilən normal cəmiyyət üzvü onun boğazdan yuxarı danışdığına əmindir. Çünki bu gün bir çoxları cəbhə hakimiyyətinin birillik dövrünü yaxşı xatırlayır. Antihumanizm, özbaşınalıq və anarxiya nəinki demokratiyanı beşikdə boğurdu, o cümlədən, insanlarımız çoxsaylı təhlükələrlə, bütövlükdə isə yenicə müstəqillik əldə etmiş Azərbaycan dövləti böyük güclərin yeminə çevrilmək üzrə idi".

"Bütün bunları bu gün "demokratik cəmiyyət uğrunda" şüarları ilə bağıran Ə.Kərimlinin də təmsil olunduğu o zamankı hakimiyyət törətmişdi", deyən ekspertin fikrincə, bu adam öz liderinə xəyanət edən bir fərd kimi də tanınır, həmçinin, yalnız o deyil, digərləri də hakimiyyətdaxili məsələlərdə sui-qəsd cəhdləri edir, ən qəddar işlərə əl atırdılar: "Qəddarlıq demişkən, xatırlatmaq istərdim ki, məhz Ə.Kərimlinin prezidentin müşaviri, dövlət katibi olduğu vaxtlarda Azərbaycanda ölüm hökmü kəsilmiş insanlarımız bu hökmün icrasının qurbanları oldular. Halbuki, Azərbaycan artıq ölüm hökmünün aradan qaldırılmasını əks etdirən beynəlxalq konvensiyanın üzvü idi. Budurmu onların "Azərbaycana demokratiya gətirəcəyik" kimi prinsiplərinin göstəricisi? Ümumiyyətlə, əgər nəzərə alarsaq ki, hazırda da AXCP və "Milli Şura" ətrafında azərbaycanlıya xas olmayan hadisələr mövcuddur və belə hadisələr daha əvvəlki illərdə də baş verib, onda istər Ə.Kərimlinin, istərsə də onun ətrafının necə uğursuz, milli-mənəvi dəyərlərdən uzaq olan biriləri olduğunu tam əminliklə söyləyə bilərik. Artıq bu, həm də bir aksiomadır ki, müxtəlif xarici dairələrin sifarişlərini canla-başla yerinə yetirən, həttа həmin sifarişləri xüsusi şövqlə sosial şəbəkələrdə ictimailəşdirən həmin ünsürlər toplumu əllərinə düşən ən kiçik imkanda belə, dövlətçilik maraqlarını satmağa hazır olduqlarını sübuta yetirmiş olurlar".

"Biz elə də uzağa getməyək və Əli Kərimlinin müavini Fuad Qəhrəmanlının öz ailəsinə, övladlarına qarşı sərgilədiyi şiddətin hansı məcraya qədər böyüdüyünü xatırlayaq", deyən Bəhruz Quliyev əlavə edib ki, əgər bu gün bir şiddətə, hətta deyərdim ki, sadizm davranışlarına AXCP sədri başda olmaqla, onun trolları da dəstək göstərirlərsə, belə hadisələrdən həm ruhi, həm mənəvi, həm də fiziki zədə alan bir ailəyə - qadına, qıza qarşı söyüş, həqarət kampaniyaları düzənlənirsə, artıq bu zaman hər şey tam aydınlığı ilə üzə çıxmağa başlayır: "Bax, budur demokratiya pərdəsi altında oynanılan teatr tamaşsı və budur Əli Kərimlinin gerçək "siması", ya da simasızlığı: "Beləliklə, biz bu kimi məsələlərdə hansı nəticəyə gəlib və hansı sonluğu hasil edə bilərik? Azərbaycan dövlətinin xalq-iqtidar vəhdəti üzərində inkişafına qarşı çıxanların bütün cəhdləri boşa çıxır və onlar məğlubiyyət olduqca, həm də ifşalara məruz qalırlar. Misal üçün, götürək Ə.Kərimlinin yaxın ətrafında sayılan Gültəkin Hacıbəylini. Bu günlərdə məlum oldu ki, hətta onun özü də saxta profillər vasitəsi ilə trolluq edirmiş. Həm də bunu onun özü ifşa edib. Digər saxta profili ilə özü barədə məlumat yayıb. Məgər həmin faktın özü onların trolluqlarını sübuta yetirmirmi, isbatlamırmı? Nəticə olaraq hesab edirəm ki, Əli Kərimli və trolları nə qədər çox aqressivləşib, müxtəlif səpgilərdə şərböhtan xarakterli iddialar irəli sürəcəklərsə, bir o qədər də ifşaları artacaq".

## YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin şura iclası keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında təşkilatın gənclər birliyinin şura iclası keçirilib. Tədbirdə rayon təşkilatı gənclər birliyinin cari fəaliyyəti, qarşıda duran vəzifələr və gənclərin fəallığının daha da artırılması ilə bağlı bir sıra məsələlər geniş müzakirə olunub.***

İclası giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin sədr əvəzi Anar Əliyev Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən struktur və kadr islahatları haqqında danışaraq, qeyd edib ki, bu islahatlar Azərbaycan gəncliyinin hərtərəfli inkişafına zəmin yaradıb, onların cəmiyyətdə özlərini təsdiq etmələrində böyük əhəmiyyət kəsb edib. Qeyd edib ki, YAP hər zaman gəncərin təşəbbüskarlığını dəstəkləyir və qiymətləndirir. Bu baxımdan, gənclərin düşüncə və ideyaları hər zaman diqqət mərkəzində saxlanılır.

İclasda çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov YAP-ın gənclərin siyasi fəallığının artırılmasına, asudə vaxtlarının səmərəli təşkilinə, beynəlxalq əlaqələrin genişlənməsinə, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirdiyini bildirib. İştirakçıların diqqətinə çatdırıb ki, partiyamızın 750 minə yaxın üzvü var və onların da 40 faizini gənclərin təşkil etməsi onların siyasi və ictimai fəallığının göstəricisidir. Bu gün cəmiyyətimizdə gənclərin fəallığı olduqca yüksək səviyyədədir və onlar milli maraqların etibarlı müdafiəsi naminə sıx birləşiblər. Gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirən R.Göyüşov ölkəmizin inkişafında, müasirləşməsində və yeniləşməsində onların rolunun əvəzsiz olduğunu vurğulayıb.

İclasda YAP Binəqədi rayon təşkilatının aparatın baş məsləhətçisi, rayon gənclər birliyinin şura üzvü Kubra Əliyarlı çıxış edərək bildirib ki, YAP Gənclər Birliyi bu gün istedadlı, cəmiyyətə və dövlətə xidmət etmək istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə işlər görür: "Gənclərə yaradılan şəraitdən də gənclərimiz səmərəli istifadə etməli, dövlətçiliyimizin təbliği və inkişafına öz töhfələrini verməlidirlər. Gənclərimiz daim ayıq-sayıq olmalı, vətənimizin müdafiəsi, Ulu Öndər Heydər Əliyev ideyalarının yaşadılmasına səylə çalışmalıdırlar. Ölkəmizin uğurlarına kölgə salmağa cəhd edən şəxslərə qarşı mübariz olmalıdırlar."

İclas gənclərin fikir mübadiləsi ilə yekunlaşıb.

***Zümrüd BAYRAMOVA***

## YAP Səbail rayon gənclər birliyinin idarə heyətinin iclası keçirilib

***Dünən YAP Səbail rayon gənclər birliyinin idarə heyətinin iclası keçirilib. İclasda Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev çıxış edərək, ölkəmizdə və yaxın coğrafiyada gedən ictimai-siyasi proseslərdə gənclərin rolu və yeri, onların ictimai fəallığının daha da artırılması, xüsusən, müasir dünyada gedən informasiya mübarizəsinin müxtəlif formalarından, ilk növbədə, sosial şəbəkələrin imkanlarından geniş, səmərəli istifadə edilməsi və digər məsələlər müzakirə olunaraq, qarşıda duran vəzifələrlə əlaqədar müvafiq tövsiyələr verilib.***



Gənclərin müstəqil dövlətçiliyimizin qorunması və qüdrətlənməsində müstəsna rolu haqqında danışan Ş.Hacıyev onu da bildirib ki, sürətlə inkişaf edən və torpaqlarının 20%-inin işğal altında olmasına baxmayaraq iqtisadi, hərbi gücü ildən-ilə artan Azərbaycanın öz təbii sərvətlərinin sahibi olması və müstəqil siyasət yürütməsi bəzi xarici qüvvələri son dərəcə narahat edir: "Bu bölgədə Türkiyədən sonra ikinci türk dövlətinin söz sahibinə çevrilməsini istəməyən müəyyən güclər ölkəmizə, müstəqil dövlətçiliyimizə qarşı müxtəlif vasitələrlə çirkin qarayaxma və nüfuzdan salma kampaniyaları həyata keçirirlər. Hər bir azərbaycanlı, milli ruhla yaşayan hər bur vətəndaş ölkəmizdə bu gün mövcud olan sabitliyi, əmin-amanlığı, firavanlığı, ilk növbədə, özü və ailəsi üçün göz bəbəyi kimi qorumalıdır. Gənclər xatırlamasa da, orta nəslin nümayəndələri indi sosial şəbəkələrdə müxtəlif pafoslu çıxışlar edən AXC-Müsavat cütlüyü nümayəndələrinin hakimiyyətdə olduğu biabırçı bir neçə il ərzində cəmiyyət həyatının bütün sahələrində yaranan dərin böhranı, torpaqlarımızın itirilməsi ilə nəticələnən müharibə şəraitini, ölkədə hökm sürən hərc-mərcliyi, özbaşınalığı xatırlayır. Bu səbəbdir ki, özlərinə müxalifət deyən qaragüruhçuların cəmiyyətdə heç bir sosial bazası, elektoratı yoxdur və onlar, sadəcə, virtual məkanda, ilk növbədə, gənclərin hədəf alındığı və xaricdən sifariş olunan, maliyyələşən mənəvi terrorla məşğuldurlar".



Ş.Hacıyev Azərbaycanda son illər bütün sosial-iqtisadi göstəricilər üzrə əldə olunan uğurlar, əhalinin rifahının, həyat şəraitinin yaxşılaşdırılmasına istiqamətlənən sosial paket çərçivəsində reallaşdırılan islahatlar, nəinki mərkəz Bakıda, eləcə də, Bakıətrafı kəndlərdə, bütün regionlarda, gedən genişmiqyaslı abadlıq-quruculuq, tikinti və infrastrukur yenilənmə işləri haqqında ətraflı məlumat verərək, bütün bu görülən işlərdə Yeni Azərbaycan Partiyasının rolunu xüsusi qeyd edib: "Gənclər üçün ölkəmizdə yaradılmış şərait, dövlət səviyyəsində Azərbaycan gənclərinə göstərilən diqqət və qayğı, xaricdə təhsil və təqaüd imkanları haqqında danışan deputat gənclərə bütün bu imkanlardan səmərəli istifadə etməyi, Vətənə, dövlətə, cəmiyyətə yararlı vətəndaşlar və mütəxəssislər kimi formalaşmalı və milli-mənəvi dəyərlərimizi qorumalıdır. Yeni Azərbaycan Partiyası istedadlı, savadlı gəncləri hər zaman dəstəkləmişdir və gələcəkdə təşəbbüskar gənclərimizi maraqlı layihələr gözləyir".

***R.KAMALQIZI***

# BSU tələbələri ikili diplom alacaq



***Bolqarıstan Respublikasının Müqəddəs Kiril və Mefodiy adına Veliko-Tırnovo Universitetinin rektoru Xristo İlievin rəhbərliyi altında beş nəfərdən ibarət nümayəndə heyəti Slavyan Universitetinə beş günlük ezamiyyətə gəlib.***

Qonaqları qəbul edən BSU-nun rektoru, professor Nurlana Əliyeva Bolqarıstanla Azərbaycan arasında dostluq münasibətlərinin tarixindən, müstəqillik dönəmində iki dövlət arasında münasibətlərin yeni mərhələyə daxil olmasından, Ulu Öndər Heydər Əliyevin, Onun davamçısı Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın Bolqarıstan Respublikası ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi sahəsində gördüyü işlərdən danışıb. N.Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Bolqarıstanın Veliko-Tırnov şəhərindəki bu ölkənin qədim tarixini nümayiş etdirən maraqlı və cazibədar bir kompleks kimi ümumdünya mədəni irsi sırasına daxil olan Trapezitsa Qalasında aparılan təmir-bərpa işlərindən danışıb.

Veliko-Tırnovo Universitetinin rektoru Xristo İliev Bondjolov, öz növbəsində, səmimi qarşılanmaya görə BSU-nun rektoru, professor N.Əliyevaya dərin təşəkkürünü bildirərək, Bolqarıstanın Azərbaycanla tarixən dostluq əlaqələrinə malik olduğunu qeyd edib. Rektor Bakı ilə bağlı ilk tanışlıq təəssüratını bölüşərkən, Azərbaycan paytaxtının dünyanın ən müasir meqopolisləri ilə yanaşı dayanmağa layiq bir şəhər olduğunu vurğulayıb.

Azərbaycan dövlətinin təhsilə qayğısını yüksək qiymətləndirən Veliko-Tırnovo Universitetinin rektoru Xristo İliev Bondjolov rəhbəri olduğu universitetlə BSU arasındakı əməkdaşlığın Azərbaycan və Bolqarıstan dostluq münasibətlərində mühüm rol oynayacağını bildirib. BSU-da bolqar dilinin və ədəbiyyatının öyrənilməsindən məmnun qaldığını qeyd edən X.İ.Bondjolov Azərbaycan xalqının tolerant, multikultural dəyərlərə sadiq bir xalq olduğunu deyib. X.İ.Bondjolov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Bolqarıstanda Veliko-Tırnovo şəhərinin fəxri vətəndaşı adı verilməsindən və ona Müqəddəs Kiril və Mefodiy adına Veliko-Tırnovo Universitetinin fəxri doktoru diplomlarının təqdim olunmasından da söz açıb.



Çıxışlardan sonra rektorlar universitetlər arasında ikitərəfli müqavilələni imzalayıblar. Müqavilənin əsas şərtlərindən biri BSU tələbələrinə ikili diplomların verilməsi olacaq. Bundan əlavə, müqavilədə tələbə mübadiləsi aparılması, bolqarşünaslıqla məşğul olan gənclərin adıçəkilən universitetdə praktika keçməsi və digər məsələlər nəzərdə tutulur.

Qonaqlar BSU-da fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, universitetin muzeyi, kitabxanası ilə yaxından tanış olublar. Sonra onlar BSU-nun Bolqar dili Tədris və Mədəniyyəti Mərkəzində bolqarşünaslıq üzrə təhsil alan tələbələrlə görüşüblər. Qonaqlar mərkəzin kitabxanasına bolqar dilində kitablar bağışlayıb.

***Zümrüd BAYRAMOVA***

# Plastik torbaların ətraf mühitə zərərləri və ya “Yeddinci Qitə”

**_Son illərdə alış-veriş mərkəzlərində və böyük marketlərdə görməyə öyrəşdiyimiz plastik torbalar əvəzinə, yenidən istehsala yararlı materialdan və parçalardan hazırlanmış torbalara rast gəlmək də mümkündür. Dünyada sənayeləşmənin inkişafı təbiətə öz mənfi təsirini göstərməyə başlayıb. Və təbiətə zərər vuran başlıca səbəblərdən biri də həddən artıq plastik materiallardan istifadədir. Plastik torbaların ətraf mühitə zərərləri olduğu qədər insan bədəninə də bir çox mənfi təsirləri vardır. Aparılan bir çox tibbi araşdırmalar nəticəsində son illərdə artan bir çox xəstəliklərin əmələ gəlməsində məhz bu torbaların hazırlanmasında istifadə olunan materialların da böyük rolu var. Plastik torbalarda saxlanılan ərzaqlar kimyəvi maddələrlə reaksiyaya girir və bu da insanın sağlamlığına öz mənfi təsirini göstərir._**

Bakı sakini Bayar Ağayev gündəlik həyatında plastik torbalardan istifadə edir, zərərləri barəsində isə müəyyən qədər məlumatı var: “Bilirəm ki, kimyəvi maddələrdən



hazırlandığına görə, ərzaq məhsullarının saxlanması üçün əlverişli deyil. Yaxşı cəhəti budur ki, evdəki tullantıları bu torbalara ataraq evdən uzaqlaşdıra bilirik. Kağız torbalardan istifadə etmək nisbətən məqsədəuyğun hesab olunur. Məsələn, mağazalarda çörəklər kağız torbalarda satılır, bu çox yaxşı haldır. Plastik qablar kimyəvi maddələrdən hazırlandığı üçün ət və ət məhsullarının, turşuların plastik qablarda saxlanması zərərlidir.

Sarvan Tahirov isə düşünür ki, hələlik plastik torbalarsız mümkün



deyil: “Ətraf mühitə zərərləri barədə eşitmişəm. Alternativ variant kimi kağız və parça torbalardan, istifadə etmək olar. Yaxşı olar ki, bizim ölkəmizdə də plastik torbalar qadağan olunsun”.

Şəhla Cəlilovanın da plastik tullantıların ətraf mühitə zərərləri barəsində məlumatı var. O isə təklif edir ki, alternativ variant kimi




tullantı qablarının çox olması yaxşıdır. Bu zaman insanlar həmin tullantıları qablara atacaq və bu özü də ətraf mühitin təmizliyinə bir köməkdir.

Kainat Qubadov plastik torbalardan hər gün istifadə etdiyini təəssüf hissi ilə söyləyir: “Onun ətraf mühitə zərərləri barəsində xəbərimiz olsa da yenə də istifadəsinə davam edirik. Türkiyədə təhsil alıram və orada 2020-ci ilin yanvar ayından etibarən plastik torbalar pullu olacaq. Fikrimcə, Azərbaycanda da bu hal yaranarsa, plastik torbalardan istifadəsi azalar”.









Elmdar Qurbanovun sözlərinə görə, lazım gəldikdə plastik torbalardan istifadə edir, ətraf mühitə



zərərləri barəsində də məlumatı var: “Əvvəllər kağız torbalardan istifadə olunurdu, indi çörəklər də kağız torbalara qoyularaq satışa çıxarılır. Bu yaxşı bir haldır. Yaxşı olar ki, digər məhsulların qablaşdırılmasında da bu kimi materiallardan istifadə olunsun”.

Plastik torbaların məhvi əsnasında ortaya çıxan qazlar da, ən az onların istifadəsi qədər təbiətə ziyan verir. Qəfildən meydana gələn meşə yanğınlarının səbəbləri arasında belə plastik torbalar da var. Belə ki, ətrafa atılan bu şəffaf torbalar günəş işığını udaraq istixana effekti yaradır, bu isə öz növbəsində yanğınlara səbəb olur. Plastiklərin çürümə prosesi dənizdə 400 il, torpaqda isə 800 ildir. Bu çürümə əsnasında isə bütün zərərli maddələr suya və torpağa qarışır. İnsanların işlədikləri ərazilərdə bu vəziyyət məhsullara da təsir edərək sağlamlığa zərərli halları meydana çıxır. Eyni zamanda ətrafa atılan plastik torbaları heyvanların qida zənn edərək yeməsi nəticəsində sindirim sistemlərinin pozulması ilə ölümlərinə yol açır. Qara rəngli torbalar tullantı maddələrindən əldə edildiyi üçün çox zərərli olduğu bilinir. Artıq bir çox ölkələrdə plastik torbalara qadağa qoyulur.



Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, bir çox ölkələrdə, o cümlədən dünyanın ən məşhur çaylarından biri olan Nil çayının plastik tullantı materialları ilə necə çirkləndiyini öz gözlərimlə görmüşəm. Bu məsələ dünyanı narahat edən problemlərdən biridir. Dünyanın zəif ölkələrindən sayılan Nepal belə plastik qablaşdırmalardan imtina edib.




Təşkilat rəhbərinin sözlərinə görə, ilk öncə əhali bu mövzuda maarifləndirilməlidir və digər ölkələrin təcrübəsindən yararlanmaq lazımdır: “MDB və bir çox ölkələrinin təcrübəsi belədir ki, maksimum nazik, rəngsiz və pulla satılan plastik torbalardan istifadə edilsin. Birdən-birə plastik qablaşdırmadan imtina etmək mümkün deyil. Çünki Azərbaycan dünya bazarına inteqrasiya olmuş bir bazara malikdir. Artıq bir çox firmalar şüşə qablaşdırmaya keçiblər. Bu çox yaxşı bir haldır. Azərbaycanda bərk tullantıların idarə olunması üçün xüsusi komissiya var. Azad İstehlakçılar Birliyinin sədri olaraq mən də o komissiyanın üzvüyəm. Mən orada qida məhsullarının qablaşdırıldığı plastik tarlaların məhdudlaşdırılması və onun ətraf mühitə atılmasının qarşısının alınması üçün müəyyən təşəbbüslər qaldırmışam. Düşünürəm ki, bu təşəbbüslər dəstəklənəcəkdir. Çox yaxşı haldır ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu məsələni artıq gündəmə gətirib.

Eyyub Hüseynovun sözlərinə görə, ən alternativ və dünyanın heç bir yerində olmayan talış zənbilləridir: “Əvəzolunmaz ekoloji bazar torbasıdır. Hazırda mən özüm də talış zənbillərindən istifadə edirəm. Çox gözəldir və hətta onun xaricə bazarını yaratmaq olar. Bir çox ölkələrdən, o cümlədən Amerikadan bir çox nümunələr gətirmişəm. Plastik qablardan, sinilərdən imtina edilərək karton əsaslara keçilib. Amerika və bir çox ölkələr plastik qaşıqdan, çəngəldən hələ imtina edə bilməyiblər. Bu, etapla olmalıdır, əvvəla əhalinin, sonra isə biznes qurumlarının təşəbbüsü lazımdır. Azərbaycanda böyük biznes qurumlarından bu təşəbbüsə qoşulanlar var. Üstəlik plastik tullantıların təşkil olunmuş şəkildə toplanılması vacibdir. Nərimanov rayonunda qaldırılmış bu təşəbbüs təqdirə layiqdir. Orda artıq plastik tullantılar yığılır və ultrizasiya edilərək aradan qaldırılır. Plastik qablarda turşu, üzüm yarpağı qoyulması, hətta bəzi rayonlarda istifadə olunmuş plastik qabların sonluğunu əmzik taxaraq körpə qidası saxlanılması bizi çox narahat edir. Bunlar yolverilməzdir”.

Gündə neçə növ plastik məhsullar istifadə etdiyimizi düşünün. Bütün dünyada hər il 1 trilyon plastik torba, 500 milyon plastik su qabları və 5 milyard plastik stəkan istifadə edilərək atılır. Hər birimizin istifadə etdiyi bu plastiklər əvvəlcə suya qarışır, sonra çaylara, dənizlərə və okeanlara qədər çatır. Dünyadakı hər bir insanın istifadə etdiyi bu tullantılar okeanda su dalğaları ilə birləşib və 1,8 trilyon plastikdən ibarət bir adaya çevrilib. Təxminən 3,5 milyon kvadrat metrlik ərazini əhatə edən bu nəhəng plastik tullantı kütləsini ada yox artıq qitə adlandırmaq olar. Bu tullantılar 700 dən çox canlının həyatı üçün təhlükəlidir. Dəniz quşlarının və dəniz tısbağalarının 44 faizinin mədəsində plastik parçaların olduğu təxmin edilir. Hər il 1 milyon dəniz quşu sadəcə bu səbəbdən ölür. Bunu yeyən balıqlar da qida rasionumuzun önəmli qismini təşkil edir. Düşünün ki, yediyiniz balığın içində görə bilmədiyimiz plastik materiallar var. Hal hazırda dünyanın 5 ayrı bölgəsində bu adalara bənzər adalarda plastik tullantılar toplanmağa davam edir. 2050-ci ildə bu tullantı kütləsi dənizdəki bütün balıqların kütləsi ilə eyni olacağı təxmin edilir.

**_Aysel MƏMMƏDOVA_**

# “Seçicilərim telefon zəngləri edir, ən kəskin halda hiddətləndiklərini bildirirlər ki...”

## “SƏS” qəzetinin “Səmimi müsahibə” rubrikasının qonağı Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəblidir

***Bildiyimiz kimi, artıq sentyabrın 30-da Milli Məclisin V çağırışının payız sessiyası öz işinə başlayacaq. Biz parlamentin gündəliyi ilə, parlamentin işində iştirak edən deputatlarla maraqlandıq və düşündük ki, sessiyanın işi ilə bağlı deputatlarımızdan biri ilə fikir mübadiləsi aparaq, parlament-hakimiyyət, parlament-cəmiyyət, parlament-seçici, eləcə də, parlament-müxalifət münasibətləri ətrafında bizi maraqlandıran suallarımıza cavablar alaq. Çox düşündükdən sonra biz, nəhayət, Milli Məclisin ən mühüm komitələrindən biri olan Əmək və Sosial Siyasət Komitəsinin sədri, Azərbaycanda ilk siyasi elmlər namizədi, siyasi elmlər doktoru, professor, beş çağırış müstəqillik dövründə, bir çağırış isə sovetlər dövründə deputat olmuş və ötən müddət ərzində, eləcə də, hazırda parlamentin ən məsuliyyətli komitələrindən birinə rəhbərlik edən, keşməkeşli həyatın bütün eniş-yoxuşlarından keçmiş və əlbəttə ki, jurnalistlərin dostu olan Hadı Rəcəbli ilə söhbət etməyi məqsədə müvafiq hesab etdik. Beləliklə, müsahibəmizi də elə Hadı müəllimin Milli Məclisdəki iş otağında götürmək qərarına gəldik.***

***-Hadı müəllim, necəsiniz və payız sessiyasının ilk iclasına hansı əhval-ruhiyyə ilə gedirsiniz?***

-Yaxşıyıq, çox sağ olun, minnətdaram. Biz “Səs” qəzetini sevə-sevə oxuyuruq, izləyirik, amma nədənsə, “Səs” qəzetində mənim müsahibələrim və açıqlamalarım son neçə ildə, demək olar ki, görünmür. Ona görə də, özümü narahat hiss edirdim və nə yaxşı ki, siz mənə və mənim ən çox sevdiyim və hörmət etdiyim qəzetlərin birində müsahibəmi dərc etmək qərarına gəldiniz.

Mövzuya gəldikdə isə, deyə bilərəm ki, parlament sessiyası fərqli olur, payız sessiyalarını dünyada büdcə sessiyaları adlandırırlar. Bu baxımdan, payız sessiyalarının baş prinsipi bol müzakirələrlə keçir, müəyyən debatlara səbəb olur, xüsusilə, müxalifət-iqtidar mübahisələri də həmin ərəfəyə təsadüf edir, hər kəs büdcədən daha səmərəli və seçiciləri üçün daha çox istifadə etmək istəyir. Ona görə də, müxtəlif polemikalarla müşahidə edilən müəyyən fikir ayrılıqları əmələ gəlir.

### “Mənim üçün bu sessiya əhəmiyyətli məqamları ilə çox əlamətdardır və bu sessiyalarda bizim komitənin gündəmində çox maraqlı məsələlər olur”

Əsas baş məqsəd nədir? Bilirsinizmi, parlament xalqı təmsil edir və burada fikirlər bir neçə məqamları əhatə edir. Hökumət öz mövqeyindən çıxış edir və maliyyə imkanları kontekstində təkliflərini verir, deputatlar da, əlbəttə, xalqın, seçicilərinin mənafeyindən münasibətlərini bildirir və çalışırlar ki, seçildikləri rayonların problemləri öz həllini tapsın. Əlbəttə ki, ayrı-ayrı nazirliklər də öz fəaliyyət maraqları əsasında fikirlərini çatdırırlar. Beləliklə, burada üçşaxəli fikir tandemi ortaya çıxır və bu tandem kifayət qədər çətin və narahat bir prosesdir desək, heç də yanılmarıq. Burada həm maliyyə imkanları üst-üstə düşməlidir, həm vəsaitlərin nazirliklər tərəfindən səmərəli istifadə edilməsi gündəmdə olmalıdır və əsas məqsəd olaraq, vətəndaşın güzəranın daha yaxşı olması üçün mühüm qərarlar qəbul edilməlidir. Ona görə də, mənim üçün bu sessiya əhəmiyyətli məqamları ilə çox əlamətdardır və bu sessiyada bizim komitənin gündəmində, hər il olduğu kimi, bu il də çox maraqlı məsələlər ortaya qoyulur. Qeyd edim ki, büdcə müzakirələri vaxtı Sosial Müdafiə Fondunun, İşsizlikdən Sığorta Fondunun büdcələrinin müzakirəsində, biz daha çox obyektiv reallıqlardan çıxış edərək, sosial müdafiənin gücləndirilməsi haqqında düşünürük. Biz sevinirik ki, artıq indidən bizdə olan məlumata görə, Möhtərəm Prezidentimiz İlham Əliyev Cənablarının təqdim etdiyi gələn ilin büdcəsi daha çox, sözün böyük mənasında, sosial yönümlü olacaq. Belə ki, 5 milyard manat builki büdcənin üstünə gələcək. Əlbəttə ki, bütün bunlar imkanların, reallıqların və artan gəlirlərin məntiqi nəticəsidir. Cənab Prezidentimizin də dediyi odur ki, büdcə vəsaiti arta-arta islahatlar aparılır və həmin vəsaitlər, təbii ki, nəticə etibarilə, vətəndaşa geri dönür.

Bizim komitə tərəfindən də bu sessiyada turizm haqqında qanuna baxılacaq, əlbəttə ki, biz qanunlarımıza əlavə və dəyişikliklərlə bağlı müraciətlər edəcəyik. Beləliklə, son nəticədə, Azərbaycan vətəndaşının güzəranının daha da yaxşılaşması gündəmdə olacaq.

***-Hadı müəllim, siz qanun yaradıcılığı prosesindən danışdınız, hökumətin, nazirliklərin, vətəndaşların və deputatların mövqeləri barədə fikir söylədiniz və əlbəttə ki, bu üç tandem önəmlidir. Ümumiyyətlə, sözügedən məsələyə bu üç amilin baxış prizmasından yanaşma məsələsində qanun yaradıcılığı prosesi necə gedir?***

-Xalqımız müstəqillik əldə etdikdən sonra Azərbaycan parlamentinin əsas məqsədi bu olub ki, müstəqil və suveren dövlətin hüquqi bazası yaradılsın. Əlbəttə ki, bunun üçün həm deputatların, həm bizim aparatın bütün kollektivi ona işləyir ki, dünyada mövcud olan



praktika öyrənilsin və bu qanunlar qavranılsın, çünki bilirsiniz ki, dünyada həm də bazis qanunlar var. Ötən 25 il ərzində, demək olar ki, biz hüquqi bazanı tamamilə formalaşdıra bilmişik. Reallıqlardan çıxış edərək, qanunlara əlavələr və dəyişikliklərin edilməsi məsələsi daim müzakirə olunur ki, bu da, Möhtərəm Prezidentimizin etdiyi çıxışlarının, irəli sürdüyü tezislərinin və təşəbbüslərinin nəticəsi olaraq qiymətləndirilir.

### “Cənab Prezidentin parlamentə göndərdiyi layihələrin müzakirəsində və qəbulunda yaxından iştirak edirik”

Sual oluna bilər ki, bəs qanun yaradıcılığında daha hansı strukturlar iştirak edir? Ali Məhkəmənin, Naxçıvan Muxtar Respublikasının qanun yaradıcılığı prosesində mühüm rolları vardır və bir sıra digər strukturlar mövcuddur ki, onlar da həmin prosesin iştirakçılarına çevrilirlər. Beləliklə, bütöv qanun yaradıcılığı prosesində ilkin olaraq, Prezident və deputatlar iştirak edir, eləcə də, dediyim kimi, müxtəlif dövlət qurumları sözügedən prosesdə iştirakçı olurlar.

İkinci böyük istiqamət qanunlara əlavə və dəyişikliklərin edilməsidir ki, burada deputatların da təşəbbüsləri var və əlbəttə ki, əsasən, Cənab Prezidentin parlamentə göndərdiyi layihələrin müzakirəsində və qəbulunda yaxından iştirak edirik.

Üçüncü istiqamət isə, çoxtərəfli və ikitərəfli sazişlərin, beynəlxalq Konvensiyaların Milli Məclisdə təsdiq olunmasıdır ki, bu da, qeyd edilən istiqamətlərdən biridir.

Söz yox ki, parlamentin işində digər məqamlar da olur ki, biz müəyyən müraciətləri və məktubları təsdiq edirik.Belə ki, fəaliyyətimizdə beynəlxalq əməkdaşlıq da geniş yer tutur, hazırda Milli Məclisdə 80-dən çox dostluq qrupları mövcuddur, onlar maliyyələşdirilərək xarici səfərlər həyata keçirir və xarici ölkələrdən qonaqlar qəbul edirlər. Ümumiyyətlə, biz hər zaman çalışırıq ki, Azərbaycan həqiqətlərini dünyaya çatdıraq. Bu baxımdan da, Azərbaycan parlamentinin gördüyü işlər kifayət qədərdir. Misal üçün, Avropa İttifaqına üzv olmasaq da, biz orada daimi müşahidəçi kimi iştirak edirik, Avropa Şurasının, BMT-nin Parlamentlərarası Assambleyasının, Ümumdünya Parlamentlər İttifaqının, İƏT-in, QDİƏT-ın üzvü, Qoşulmama Hərəkatının iştirakçısıyıq və beləliklə, parlamentin qanun yaradıcılığı prosesi ilə, eyni zamanda, belə bir istiqamətlərdə də fəaliyyətimizi həyata keçiririk.

***-Hadı müəllim, biz parlamentin formalaşmasında müxtəlif fikir ayrılıqlarını da müşahidə etmişik. Belə ki, seçki kampaniyaları səsli-küylü, mübahisəli olur, o cümlədən, seçki ərəfəsində siyasi partiyalar fəallaşır. Ümumiyyətlə, bizim parlamentin çoxpartiyalı fəaliyyətini necə görürsünüz?***

-Bəli, çox düzgün buyurursunuz ki, seçki ərəfəsində, istər-istəməz, ictimai-siyasi fəallıq artır. Bu kampaniyalar bələdiyyə, parlament və əlbəttə ki, prezident seçkilərində aparılır. Təbii ki, bu dövrlərdə fəallıq artmaqla yanaşı, seçilmək ambisiyası olan hər bir vətəndaş qanunların tələbinə cavab verən proseslərdən keçərək, seçkilərə qatılmaq hüququndan istifadə edir. Yaxın vaxtlarda biz bələdiyyə seçkilərinə gedəcəyik və bələdiyyə seçkilərində də müxalifət fəallaşır. O cümlədən, gələn il bizim parlament seçkiləridir və burada da, söz yox ki, partiyalararası debatlar aparılır.

Azərbaycanda 55 partiya mövcuddur və bu partiyaların ən böyüyü, əhalinin təxminən 8%-ni təşkil edən Yeni Azərbaycan Partiyasıdır və YAP hakimiyyətə gəldiyi gündən hazırkı dövrə qədər, xalqın məhəbbətini qazanıb. Çoxluqdan başqa, keyfiyyət tərkibinə görə də, öndə gedən siyasi təşkilatdır və buna görə də, partiyamızın Sədri həm də ölkənin Prezidentidir, O da, xalqın dəstəyi ilə seçilibdir, keçirilən prezident seçkilərində yüksək faizlər toplayıb və beləliklə, YAP ölkənin aparıcı partiyasıdır. Bu baxımdan, bizim parlamentimizdə də 70-dən çox partiyamızın üzvü var və nə gizlədək ki, Milli Məclisdə 12 müxalif fikirli partiya da var ki, onların içində böyük əksəriyyət dövlətə, dövlətçiliyə və prezidentin apardığı siyasətə sədaqətlə xidmət edirlər.

### “Əli Kərimlinin, onun partiyasının və ətrafının məqsədi xalqın rifahı barədə düşünmək deyil, onların məqsədi hakimiyyətə gəlməkdir”

Onu da qeyd edim ki, biz radikal müxalifətlə müxalif fikirliləri ayırmalıyıq. Bu gün cəmiyyət, dövlət, ümumiyyətlə, bütün vətəndaşlar onu görürlər ki, əgər iqtidar-müxalifət dialoqunda vətəndaş udmursa, burada vətəndaşın xeyri yoxdursa, həmin dialoqa ehtiyac da

# "Seçicilərim telefon zəngləri edir, ən kəskin halda hiddətləndiklərini bildirirlər ki..."

*"SƏS" qəzetinin "Səmimi müsahibə" rubrikasının qonağı Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəblidir*

yoxdur. Amma biz təəssüf edirik ki, Əli Kərimlinin, onun partiyasının və ətrafının məqsədi xalqın rifahı barədə düşünmək deyil, onların məqsədi hakimiyyətə gəlməkdir. Lakin xalq bir dəfə aldanıb, onları hakimiyyətə gətirmişdi və biz bunun ağır nəticələrini unutmamışıq. Mən sevinirəm ki, bu gün parlamentdə müxalif fikirli ağıllı və intellektual insanlar var. Hətta mən onların bir neçəsinin adlarını da çəkmək istərdim - Qüdrət Həsənquliyev, Fazil Mustafa, Çingiz Qənizadə və başqaları mövcud nöqsanları deyirlər, çıxış yolları axtarır və müxtəlif təkliflər irəli sürürlər. Onların və digər müxalif fikirli deputatların heç biri dövləti dağıtmaq və s. kimi radikal çıxışlar etmirlər, əksinə, Cənab Prezidentin yanında olduqlarını göstərir, dövlət maraqlarına xidmət edirlər. Təəssüf edirəm ki, bəzən, hətta elə adamlarımız var ki, öz çıxışarında "bu, belə olmalıdır, filan məsələ elə olmalıdır" kimi fantastik xoşagəlimli fikirlər səsləndirirlər və bu da, cəmiyyətdə populizm adlandırılır. Real fikirlərlə çıxış etmək və populizm tamamilə ayrı-ayrı şeylərdir. Düşünürəm ki, populizm yolverilməzdir və onun nə cəmiyyətə, nə xalqa, nə də dövlətə heç bir səmərəsi yoxdur.

***- Hadı müəllim, YAP-ın parlamentdəki rolundan və fəaliyyətindən danışdınız. Lakin son vaxtlar başqa partiyaların iqtidar partiyası ilə birgə fəaliyyət göstərməsi tendensiyası var, müxalifətlə əməkdaşlıq ideyaları səslənir. Siz müxalifət və iqtidarın daha hansı əməkdaşlıq formalarını görmək istəyərdiniz, bunu necə təsəvvür edirsiniz?***

-Bilirsiniz, müxalifətlə iqtidar münasibətləri baxımından, bizim parlament bir nümunədir. Mən hakimiyyətin təmsilçisi olaraq etiraf edim ki, müxalif yönümlü deputatların bəzi fikir və təkliflərini qəbul edirəm. Çünki nöqsan hər yerdə olur. Gəlin görək, hansı cəmiyyət nöqsansızdır? ABŞ-damı nöqsan yoxdur? Fransadamı, İngiltərədəmi, yaxud dünyanın digər aparıcı dövlətlərindəmi nöqsanlar yaşanmır? Biz də millət vəkilləri olaraq, bu nöqsanların aradan qaldırılması üçün çalışır, fəaliyyətimizi Cənab Prezidentin yeni iş yerlərinin yaradılması, əmək haqlarının, pensiya və yaşayış minimumuna görə müavinətlərin artırılması və s. işlərinə dəstək istiqamətində qururuq. Bu. bizim əsas prinsiplərimizdən biridir.

## "Köməkçilərimə də demişəm, kim ki, mənim fikirlərimi təhrif edir, müxtəlif istiqamətlərə yozursa, çağırın həmin adamları gəlsinlər görüşək, mənimlə söhbət etsinlər"



Yaxud gəlin görək, hansı cəmiyyətdə əlil, ya da qismən zəif maddi imkanlı insanlar yoxdur? Məsələn, görürsən ki, bir insan zirəkdir və kiçik sahibkarlıqla məşğuldur. Lakin onun ətrafında, bəzən elə pis fikirlər yaradırlar ki, heç kim ona bənzəmək istəmir. Çox xoşagəlməz məsələlərdən biri də budur ki, bu gün çayxanalarda oturub vaxtlarını boşa verənlər və onun-bunun pulunu saymaqla məşğul olanlarla üzləşirik. Halbuki biz çalışmalıyıq ki, insanlarımızı kiçik və orta sahibkarlığa doğru yönlənək. Bu baxımdan, bizim məqsədlərimizdən biri də budur ki, özünüməşğuluq sistemi yaradaq. Ünvanlı yardımların əlsiz-ayaqsıza verilməsinin artırılması ilə yanaşı, əli-ayağı üstündə olan, işləmək imkanı məhdud olmayan - misal üçün 2-3-cü qrup əlillərə çalışmaq üçün imkanlar yaradaq. Bax, bizim dövlətimizin yürütdüyü siyasətlərdən biri də budur ki, şəxsiyyətin deqradasiyasının qarşısını alaraq, adamları işləgüclə təmin edək. Qoy həmin insanlar da işləsinlər, pul qazansınlar. Hətta pensiyalarını da, müavinətlərini də alsınlar, amma işləyib, qazanc da əldə etsinlər. Yaxud görürsən ki, evdar qadındır, qoy o da "ABAD Xidməti"ndə çalışıb, öz işinin səmərəsini görsün. Amma gəlin görək, sözdə müxalifət deyilənlər nəyin təbliğatını aparırlar. Kimin ki, imkanı var, dərhal evinin şəklini çəkib-qoyurlar sosial şəbəkələrə. Biz keçid dövründə yaşayırıq. Ola bilər ki, kimsə sahibkarlıq fəaliyyəti ilə məşğul olub, amma həmin fəaliyyətinə görə, deklarasiya təqdim etməyib və ya görürsən ki, məmurun oğlu, ya da ailəsindən digəri biznes fəaliyyəti ilə məşğul olur.

Əlbəttə ki, qanunsuz korrupsiya yolu ilə qazanılan və yaradılan biznes qınaq və məsuliyyət hissi ilə müşayiət olunmalıdır. Belə olan halda, həmin məmuru həbs də edirlər, mülkiyyətini də müsadirə edirlər. Bəs niyə bu barədə danışmırlar, ya da dövlətin nöqsan törədən məmuruna qarşı sərt tədbirlər görməsi barədə bir fikir bildirmirlər?!

Yeri gəlmişkən, mən öz köməkçilərimə də demişəm, kim ki, mənim fikirlərimi təhrif edir, müxtəlif istiqamətlərə yozursa, çağırın həmin adamları gəlsinlər mənimlə söhbət etsinlər, üzbəüz danışaq, məsələlərə aydınlıq gətirək, problemlərinin nədə olduğunu öyrənək, dəstək göstərək və s.

***-Hadı müəllim, elə götürək sizi. Mən sizin həyat yolunuz barədə oxumuşam və görmüşəm ki, 12 yaşınızdan əmək fəaliyyətinizə fəhləliklə başlamısınız, 15 yaşınızdan rəsmi qeydiyyata düşmüsünüz və kifayət qədər enişli-yoxuşlu bir yol keçmisiniz...***

-Bəli, mən həqiqətən də, bu yolları keçmişəm. Eyni zamanda, 23 yaşımdan peşəkar siyasətdəyəm. Bütün bunlar zaman-zaman, hissə-hissə əldə olunub və yaşanıb keçib. Hər gün də səhər işə gəlirəm, axşam saatlarına qədər iş otağımda çalışıram.

## "Deputatlarımızın böyük əksəriyyəti kifayət qədər savadlı, intellektual və dövlətinə xidmət edən şəxslərdirlər"

Ona görə də, mən yeri gələndə, parlamentin mətbuat xidmətini də qınayıram, mediadakı dostlarımızı da qınayıram ki, deputatlarımız barədə yayılan böhtan və şər dolu yalanları ifşa edən materialları ictimailəşdirmirlər, əsl həqiqəti xalqın diqqətinə çatdırmırlar. Deputatlarımız kifayət qədər savadlı, intellektual və dövlətinə xidmət edən şəxslərdirlər. Məsələn, Milli Məclisdə 80-ə yaxın elmi dərəcəli olan, akademiklər, eyni zamanda, iki siyasi elmlər doktoru var. Parlamentimizdə peşəkar siyasətçilər var və dolğun fəaliyyətlə məşğuldurlar.

Axı nəyə görə heç bir əsasları olmadan, yazıb-pozurlar ki, hansısa deputatın, eləcə də, mənim filan qədər villası, şadlıq evləri, restoranları var, ya da daha nələri... Axı bütün bunlar gülməli söhbətlər və iddialardır. Biz də inkar etmirik ki, neçə illərin adamıyıq, bizim də nəyimizsə ola bilər. Təəssüf ki, cəmiyyətimizdə belə dayaz düşüncəli insanlar da var ki, ictimai rəyi aldatmaqla məşğuldurlar. Ona görə də, bir daha demək istəyirəm ki, mətbuatda, sosial şəbəkələrdə anonim yazanlar gəlsinlər parlamentə və mənim qəbul günlərim var, buyurub mənimlə görüşsünlər. Belə təəssüfedici hallar yaşanarkən, sizi inandırım ki, mənim seçicilərim telefon zəngləri edir, ən kəskin halda hiddətləndiklərini bildirirlər ki, nəyə görə bu kimi yalanları və böhtanları cəmiyyətdə yayırar.

## "Xaricdə oturub saçına rezin vuran, "priçoska" saxlayan, tərbiyəsizlik edən, söyüş söyən müxalifətdə oturanlar həyata real və açıq gözlə baxmağı bacarmırlar"

Bu gün sabitliyi pozmağa çalışanlar bilməlidirlər ki, onların səs-küylərini özlərindən başqa kimsə eşitmir. Azərbaycanda fəaliyyət göstərən ASAN XİDMƏT bütün dünyada rezonans doğurub. "DOST xidməti", "ABAD xidməti", buyurun və görün ki, ölkəmizdə nə qədər nəhəng işlər həyata keçirilib və bilavasitə xalqın rifahı üçün fəaliyyət göstərilir.

*Ardı Səh. 10*

# "Seçicilərim telefon zəngləri edir, ən kəskin halda hiddətləndiklərini bildirirlər ki..."

*"SƏS" qəzetinin "Səmimi müsahibə" rubrikasının qonağı Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəblidir*

Əvvəli Səh. 9

İndi onlar ölkədə sabitliyi pozmağa çalışırlar. Nə əldə edəcəklər axı, belə qaragüruhçuluqla? Çünki onların məqsədləri xaricdəki bəzi anti-Azərbaycan dairələrdən gələn sifarişlər qarşılığında sabitliyi pozmaq cəhdləridir.

***-Hadı müəllim, deputatlardan danışmışkən, parlamentdə incə məqamlar da var. Misal üçün müşahidə etmişəm ki, siz yanaşı kürsüdə oturduğunuz millət vəkili Hüseynbala Mirələmovla orta məktəbdə də bir parta arxasında oturmusunuz. Yəni bu da maraqlı bir təsadüfdürmü yoxsa..?***

-Bəli, bu da, maraqlı təsadüfdür. Çünki mənim Hüseynbala müəllimlə həyatımız bağlıdır. Uşaq olarkən, biz fəhləliyi də bir yerdə etmişik, oxumaqda, təhsil uğrunda da biz dostcasına yarışmışıq, rəqabət aparmışıq ki, fəal və əlaçı olaq. Ona görə də, məktəbi əla qiymətlərlə bitirmişik. Ali təhsil müəssisəsinə daxil olanda da, biz yaxşı mənada, bəhs eləmişik, bir-birimizə daim dəstək olmuşuq. Həmçinin, mən Hüseynbala müəllimin yaradıcılığında ilk oxucularından olmuşam, onun hələ 7-ci sinifdə yazdığı ilk hekayəsini elə ilk dəfə də mən görmüşəm. Beləliklə, bizim həyatımızın böyük hissəsi bir yerdə keçib və bu gün də parlamentdə yanaşı əyləşirik.

***-Hadı müəllim, Hüseynbala müəllimdən danışmışkən, o, Xətai rayonundan seçilib, bəs siz seçici-deputat münasibətlərini necə görürsünüz?***

-Əlbəttə, deputatlığa namizədlər öz seçiciləri ilə görüşür, onlarla təmasda olur ki, burada da bir qanunauyğunluq vardır. Amma bir başqa məsələ də var ki, 37 min seçici ilə vaxtaşırı görüşüb, onların fikirlərini bölüşmək bir az çətinləşib. Bəs bunun səbəbləri nədir? Məsələn mən komitə sədriyəm, parlamentdə çox gərgin iş rejimim var, səhər-axşam burada oluram. Lakin buna baxmayaraq, ən pis halda, bir ay ərzində iki dəfə rayona gedirəm, yaxud orada 15-20 nəfəri qəbul edirəm, on nəfərin qapısını döyürəm, toyunda, xeyir və şərində iştirak edirəm. Beləliklə, çalışırıq ki, seçicilərimizlə görüşək, onların problemlərini dinləyək, qayğıları ilə maraqlanaq, fikirlərini parlamentə çatdıraq. Əlbəttə, biz belə məsələləri çox sadalaya bilərik, yol, məktəb tikintilərində, su çəkilməsində, iş yerlərinin yaradılması prosesində müvafiq yuxarı təşkilatlarla əməkdaşlıq edirik, beləliklə, xalqın istədiyini, hətta bəzən onların bilmədikləri halda yerinə yetiririk. Amma nə edəsən ki, bəzən belə bir fikir də səsləndirilir və bunu da təbii saymaq olar ki, seçicilər beş ildir seçilmələrinə baxmayaraq, onlarla bir dəfə də görüşmədiklərini deyirlər.

***-Bəs qarşıdan gələn seçkilərlə bağlı nə deyə bilərsiniz, siz bu seçkilərdə iştirak etmək istəyirsinizmi?***




-Gələcək seçkilərdə mənim iştirakımla bağlı çox tez-tez sual verirlər. Təəssüf edirəm ki, bəzən bunu da irad tuturlar ki, məgər parlament qocaların yeridir? Məhz Platon dövründə, yəni eramızdan 300-400 il əvvəl "Hakimiyyət" kitabında və digər əsərlərdə də siyasətdən söhbət gedəndə, görmüşük ki, bütün dövrlərdə ağsaqqallar şurası olub. Məhz elə ona görə də, dünya səviyyəsində parlamentarilərin orta yaşı 55 ilə 62 arasındadır.

## "Parlament varislik prinsipinə əməl etməklə, əlbəttə ki, sanballı insanlardan ibarət olmalıdır"

Bizdə isə, orta yaş həddi 55-dən aşağıdır. ABŞ-da 62 yaşdır, hətta bəzi ölkələrdə 67 yaş və daha yuxarıdır. Beləliklə, parlament ağıllı-sanballı və təcrübəli insanlardan ibarət olmalıdır. Eyni zamanda varislik prinsipi var. Məsələn, SSRİ dönəmində kvota var idi ki, deputatların neçəsi qadın, neçəsi kişi, neçəsi gənc olmalıydı. Yəni yuxarıdan bunu deyirdilər və mən də partiya komitəsinin birinci katibi olanda, bunu icra edirdim. Amma indi tamamilə fərqli seçki sistemidir və mən də çox sevinirəm ki, bizim parlamentdə 40 yaşında, 50 yaşında deputatlarımız var və onlar fəallıqları ilə seçilirlər. Eləcə də, 60 və ondan çox yaşı olan deputatlarımız var. Hər seçkidə Milli Məclisin tərkibi 35-40 % dəyişir. Deməli, bu, normal haldır. Beləliklə, parlament varislik prinsipinə əməl etməklə, əlbəttə ki, sanballı insanlardan ibarət olmalıdır.

Seçkilərdə iştirakla bağlı deyərdim ki, bizim partiya özünün ən layiqli adamlarını, cəmiyyət tərəfindən qəbul olunanları, xalqın dəstəklədiyi şəxsləri deputatlığa namizədliyə seçir. Əlbəttə, partiyamız məsləhət bilərsə, əgər bizi yenidən tövsiyə edərsə, məmnuniyyətlə seçkilərə qatılacağıq.

***-Hadı müəllim, bu yaxınlarda Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin rəhbəri kimi, Çinə səfər etmişdiniz. Ümumiyyətlə, həmin səfərin məqsədi və məramı hansı məsələlərlə bağlı idi?***

-Çinə səfərimizin başlıca məqsədi Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı münasibətlərin qurulmasının 20-ci ildönümü idi və bu münasibətlərin inkişafı, əlbəttə ki, dövlətlərimiz arasındakı isti münasibətlərin göstəricisidir. Bu baxımdan bir sıra görüşlərdə iştirak etdim və nümayəndə heyətimizdə olan partiyamızın tanınmış, nüfuzlu simaları da kifayət qədər fəallıq nümayiş etdirdilər.

## "YAP və ÇKP, Azərbaycan və Çin xalqları arasındakı dostluq əlaqələrinin, Çinin "Bir kəmər-bir yol" təşəbbüsünün reallaşmasında Azərbaycanın rolu müzakirə olunub"

Görüş və tədbirlərə gəlincə, xatırlatmaq istərdim ki, biz orada ÇKP MK-nın Beynəlxalq şöbəsinin nazir səviyyəsində rəhbəri Sun Tao ilə, ÇKP MK-nın Beynəlxalq əlaqələr şöbəsinin 6-cı Departamentinin rəis müavini Van Minlə, ÇKP MK-nın Ali Partiya Məktəbinin Təhsil şöbəsinin direktoru xanım Dun Tsinlə və məktəbin təhsil əməkdaşlıq şöbəsinin direktoru xanım Lo Mintsi ilə, ÇKP Şanxay şəhəri Daimi Komitəsinin üzvü Can Qanmayo ilə səmərəli görüşlər keçirdik. Görüşlərdə YAP və ÇKP, Azərbaycan və Çin xalqları arasındakı dostluq münasibətləri, Çinin "Bir kəmər-bir yol" təşəbbüsünün reallaşmasında Azərbaycanın rolu müzakirə olunub və dövlət idarəçiliyi sahəsində iki ölkə arasında təcrübə mübadilələri aparılıb.

Rəsmi görüşlərlə yanaşı, bizim Çinin qədim tarixi, mədəniyyəti, şəhərləri ilə də tanışlığımız oldu. Biz Pekində "Quqon" İmperator Sarayını, Böyük Çin Səddini, Şanxayda "Şərqin mirvarisi" adlanan Teleqülləni, Çinşan rayonunda yerləşən Fencin qədim şəhərini və Sühoy rayonunda fəaliyyət göstərən "Mehriban qonşuluq" mərkəzini ziyarət etdik. Ümumiyyətlə, bu səfər bizdə hər zaman yenilənən Çin haqqında növbəti yeni və maraqlı təəssüratlar yaratdı. Fürsətdən istifadə edərək, partiyamızın rəhbərliyinə və səfər dostlarımın hər birinə ayrı-ayrılıqda minnətdarlıqlarımı çatdırmaq istərdim.

***-Hadı müəllim, son sualım isə belədir ki, nəyə görə bir sıra insanlar öz uğursuzluqlarını başqalarının üzərinə atırlar, yəni bu uğursuzluqlarını, bilavasitə özlərində axtarmırlar?***

-Bilirsiniz, bu kimi məsələdə bir neçə vacib faktorlar var. Birinci ailə tərbiyəsidir. Çalışmalıyıq ki, övlad ələbaxım böyüməsin. Bax, bu, bir nömrəli faktordur. İkincisi isə məktəb və cəmiyyət amilidir. Burada dost amilini, xüsusilə, ayırmaq istərdim. İnsan kiminlə oturub-durmalıdır, kiminlə fikirlərini bölüşməlidir, gələcək həyatının qurulması üçün kiminlə məsləhətləşməlidir. Əlbəttə ki, dostla.

## "Bir neçə il əvvəl şəhərdə limon satan gənc gördüm, indi onun böyük mağazası var"

Ancaq elə insanlar da var ki, onlar, necə deyərlər, "ver yeyim, ört yatım, gözlə canım çıxmasın" prinsipi ilə yaşayır və bir balaca əziyyət çəkən kimi də həyat uğursuzluğunu başqalarında axtarır. Haşiyə çıxaraq, kiçik bir hadisə nəql etmək istərdim. Bir neçə il əvvəl şəhərdə limon satan bir gənc mənə müraciət etdi. Lənkərandan idi. Polis onu təqib edir, ərazidən uzaqlaşdırmağa çalışırdı. Mən də həmin məsələyə müdaxilə edərək, acıqlandım ki, bu adam axı öz həyatinin məhsulunu satır, niyə ona mane olurlar? Bir müddət sonra həmin şəxs məclislərin birində mənə yaxınlaşdı. Öyrəndim ki, onun artıq mağazalar şəbəkəsi var və ciddi ticarətlə məşğuldur. Yəni demək istədiyim həm də odur ki, hətta deputatlarımızın bir çoxu fəhləlikdən, zəhmətdən, əziyyətdən keçərək, indi mövqe sahiblərinə çevriliblər. Məgər bu pis haldırmı? Mənim cavanlara və gənclərə də tövsiyəm budur ki, həm çalışsınlar, həm təhsil alsınlar, həm də unutmasınlar ki, uğur yalnız onların öz əllərindədir. Bütün bunlar üçün isə dövlətimiz və ölkə rəhbərliyimiz bütün imkanları yaradıb.

***-Səmimi, geniş müsahibənizə görə minnətdarlığımızı çatdırırıq, Hadı müəllim...***

-Mən də, öz növbəmdə, bir daha hər birimizə əziz, doğma olan "Səs" qəzetinə, qəzetin baş redaktoruna, mübariz və əqidəli kollektivinə böyük minnətdarlığımı bildirir, sağlığımı çatdırıram ki, belə bir səmimi müsahibəni məndən aldınız. Təşəkkür edirəm.

**Rövşən NURƏDDİNOĞLU**

# İflas: Ermənistanda siyasi zəlzələ gözləntiləri

***Ekspertlər son günlər Ermənistanda siyasi böhranın daha da kəskinləşdiyini bildirirlər. İrəvanda, sözün həqiqi mənasında, siyasi mühit qarışıb. Nikol Paşinyanın həyata keçirdiyi siyasətlə razılaşmayan vəzifəli insanların sayı artır və onlar hakim komandanı tərk edirlər. Cəmi bir il bundan öncə monolit görünən və bəzi dairələrin demokratik adlandırdığı siyasi komanda, əslində, dərin daxili ziddiyyətlər içərisində boğulurmuş. Hazırda Ermənistan cəmiyyətində, siyasi mühitində və işgüzar dairələrdə o qədər anlaşılmaz məqamlar yığılıb ki, ekspertlər hakimiyyətin iflasından bəhs edirlər. Bunun fonunda bir sıra yüksək vəzifəli şəxslərin istefa verməsi çox maraqlı təsir bağışlayır. Belə görünür ki, "inqilabçı" hökumət düşdüyü vəziyyətdən çıxış yolunu tapa bilmir. Onun nüfuzu sürətlə sıfıra yaxınlaşır. "Amulsar" qızıl mədəni ilə bağlı insanlar etiraz aksiyalarını davam etdirirlər. Onlara qarşı zor tətbiqinə etiraz edən Ermənistanın polis rəisi Valeri Osipyan işindən uzaqlaşdırılıb. Bununla N.Paşinyanın sözləri ilə siyasi kimliyi arasında dərin uçurumun olduğu üzə çıxır. Belə bir gedişatın ölkədə siyasi xaos meydana gətirəcəyinə inananlar az deyil. Bütün bunların fonunda Ermənistanda siyasi böhranın mümkün nəticələri və onların regional geosiyasi mənzərəyə təsir özəllikləri üzərində geniş dayanmağa ehtiyac görürük.***

## Siyasi yalan: erməni hakimiyyəti yeni xaos burulğanında

Məsəl var, deyərlər, "ya zəlzələdən, ya vəlvələdən"! Yəni, ya zəlzələdən, ya da vəlvələdən dağılacaq. Ermənistan hakimiyyəti bu vəziyyətdədir. Hökumətdə fikir ayrılıqları indi qarşıdurma səviyyəsinə yüksəlib və vəlvələ başlayıb. Bu vəlvələ siyasi zəlzələ ilə nəticələnə bilər. Bu barədə Ermənistan ekspertləri danışırlar (bax: məs., Akop Badalən. Politiçeskoe zemletrəsenie: vlastğ povışaet qradus jarkoy oseni / Lragir.am, 16 sentyabr 2019).

Hələ il yarım bundan öncə Nikol Paşinyanın başladığı hərəkatın demokratik olmadığı haqqında fikir bildirilirdi. Bir sıra ekspertlər isə bunun əksinə olaraq Ermənistanda "dinc demokratik hərəkat" baş verdiyindən dəm vururdular. Hətta Qərbin siyasi dairələri "erməni demokratiyası" kimi cəfəng bir ifadə işlədirdilər. Ancaq N.Paşinyanın fəaliyyət məntiqi göstərirdi ki, real olaraq bir siyasi şou göstərilir. İndi Ermənistan hakimiyyətində müşahidə edilən proseslər məhz bu qənaətin doğruluğunu təsdiq edir. Bu məqamı sübut edən bir neçə fakt üzərində dayanaq.



N.Paşinyan həyata keçirdiyi hərəkatı ona görə "məxməri inqilab" və ya "dinc demokratik erməni inqilabı" kimi qiymətləndirirdi ki, hərəkata qarşı polis güc tətbiq etmədi və etirazçılar da hökumət binalarını dağıtmadılar. Onlar təzyiqlə o zaman mövcud olan hakimiyyəti geri çəkilməyə məcbur etdilər. İndi özləri bu ilkin prinsipi pozurlar, həm də erməni cəmiyyəti üçün əhəmiyyəti olan bir məsələdə. "Amulsar" mədənini mühasirəyə alıb orada işləri dayandırmağı tələb edən kütləyə qarşı N.Paşinyan polisin zor tətbiq etməsini istəyib.

Bu, Milli Təhlükəsizlik Şurasının iclasında baş verib. İclasda ölkənin polis rəisi Valeri Osipyan bu təklifə etiraz edib və güc tətbiqinin ciddi toqquşmalar yarada biləcəyini deyib. Onda "demokrat", "məxməri" baş nazir deyib ki, eybi yoxdur, başqası onu edər. Bununla V.Osipyan oradaca istefa ərizəsini yazıb. Məlum olub ki, N.Paşinyan özünün Qərbdəki "demokrat" ağalarının göstərişlərini yerinə yetirməlidir. Həmin "demokratlar" da nəyin bahasına olur-olsun, "Amulsar"a gedən yolu açmağı tələb edirlər.

V.Osipyanın istefası KİV-də geniş yer aldı. Ancaq ondan əvvəl Milli Təhlükəsizlik Xidmətinin başçısı Artur Vanetsyanın vəzifədən getməsi ilə bağlı ictimai müzakirələr başlamışdı. Erməni ekspertlər hesab edirlər ki, A.Vanetsyan N.Paşinyan komandasında açar isimlərdən biridir. O, Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) akademiyasını bitirib. Sonra orada təkmilləşmə kursunu keçib. Yəni, peşəkar kadrdır. Ancaq keçən ilin mayında onu Ermənistan MTX-yə rəhbər qoyduqda, prezidentlə yanaşı, N.Paşinyan da ona çox inanırdı. A.Vanetsyan həqiqətən də fəaliyyətində hakimiyyəti çox bəlalardan və risklərdən qoruyub. İndi isə yollar ayrılır. Özü də A.Vanetsyanın dediyinə görə, prinsipial səbəblərdən istefa verib.

O, mətbuata verdiyi bəyanatında yazıb: "Dövlət quruculuğunda özəl məntiq var (burada söhbət, ümumiyyətlə, dövlət quruculuğu məntiqindən deyil, N.Paşinyan iqtidarının reallaşdırdığı dövlət quruculuğunun məntiqindən gedir - red.): qərarların kortəbii qəbulu, fəaliyyətdə inamsızlıq, birinci dərəcəli olanı ikinci dərəcəli olandan ayıra bilməyi bacarmamaq, daimi olanı keçici olandan ayıra bilməyən fəaliyyət obrazı, bunlar məqsədlərə aparan yol deyildir. Bunların zabit ləyaqəti, zabit rütbəsi ilə heç bir ümumi cəhəti yoxdur və hadisələrin bu cür gedişi ilə bir arada tutula bilməz. Qoy mənim istefam "dayanma"nın ayıldıcı addımı olsun..." (bax: əvvəlki mənbəyə).

## İstefalar: inqilaba qarşı yetişən inqilab

Aydın ifadə olunub ki, Ermənistan hökumətinin həyata keçirdiyi siyasət yarıtmazdır. Orada kortəbii qərarlar, məntiqsiz və əsassız addımlar, baş verən proseslərin qeyri-obyektiv dəyərləndirilməsi və s. kimi məqamlar mövcuddur. Deməli, hətta A.Vanetsyan kimi kadrlar artıq həqiqəti gizlətməyin mümkünsüzlüyünü duyurlar. Onun kimi vəzifədə olanlar həmin hərəkəti bir il bundan qabaq da edə bilərdilər. Lakin görünür, erməni xisləti imkan verməyib. Hesab ediblər ki, N.Paşinyan Ermənistana doğrudan da demokratiya və suverenlik gətirəcək. Real hadisələr göstərir ki, N.Paşinyan və komandası sırf öz maraqları naminə hərəkət ediblər və indi bir vaxtlar özlərinin olduğu pozisiyada olanlara qarşı güc tətbiqinə razıdırlar. O halda N.Paşinyanın Robert Koçaryanı ittiham etməyə nə haqqı var? Onların ikisi də bir bezin qırağıdırlar.

Bunların fonunda iki hadisə Ermənistanda siyasi zəlzələnin yaxınlaşmasından xəbər verir. Onlardan biri R.Koçaryanın azadlığa çıxması üçün Konstitusiya Məhkəməsinin aldığı qərarın Ali Məhkəmə tərəfindən rədd edilməsidir. Buna paralel olaraq erməni parlamentinin sədri bəyan edib ki, Konstitusiya Məhkəməsinin məsələsi parlamentdə müzakirə olunmalıdır.

Digər hadisə N.Paşinyanın Ermənistanın keçmiş baş prokuroru Aqvan Ovsepyanı həbs etmək niyyətində olması ilə bağlıdır. Ekspertlər bunları yeni hakim komandanın "sərhədsiz iştahası" kimi xarakterizə edirlər. Ekspertlər hesab edirlər ki, A.Vanetsyan məhz bu kimi tendensiyaya görə istefa verib. O, müəyyən həddin gözlənilməsinə üstünlük verirmiş. Sürətli və sonu məlum olmayan radikal davranışların Ermənistanı uçuruma apardığına inanırmış.

Ekspertlər yeni istefaların mümkünlüyünü də istisna etmirlər. Onların fikrinə görə, artıq Ermənistan hakimiyyətində dərin çatlar meydana gəlib və aydın olub ki, N.Paşinyanın siyasəti səmərəli deyil. Maraqlıdır ki, cəmiyyətdə də ondan narazılıqlar getdikcə güclənir. İnsanlar konkret nəticələr gözləyirlər, baş nazir isə pafoslu ümumi ideoloji bəyanatlardan başqa real heç bir iş görə bilmir. Bu pafos da "Amulsar" dalğasının altında puç olub getdi. Gördülər ki, N.Paşinyan nə demokratdır, nə də vətənpərvər - boşboğazlıqdan başqa bir qabiliyyəti yoxdur!

Belə görünür ki, Ermənistanda siyasi böhran yeni mərhələyə keçib. Bu proses əsas olaraq N.Paşinyan komandasının yararsız siyasət yeritməsindən qaynaqlanır. Bununla yanaşı, ekspertlər hesab edirlər ki, burada Moskvanın da barmağı ola bilər. Xüsusilə Nikolay Patruşevin İrəvana səfəri zamanı N.Paşinyanla ayrıca "Amulsar" məsələsini müzakirə etməsi bu baxımdan maraq doğurur. Ermənistanda hazırda müşahidə edilən ziddiyyətli proseslər məhz bu səfərdən və danışıqlardan sonra vüsət aldı.

Ekspertlər güman edirlər ki, A.Vanetsyan siyasi fəaliyyətə başlayacaq. Belə olsa, Ermənistanda N.Paşinyan hakimiyyətinin ömrünün sona çatmaqda olduğu qənaəti yaranır. Məsələ belə deyil ki, mütləq A.Vanetsyan qalib gələcək. Əsas odur ki, yuxarıda vurğulanan məqamlardan görünür ki, Ermənistanda siyasi böhran hakimiyyətin yenilənməsi zərurətini ortaya qoyur. Konkret olaraq, N.Paşinyan layihəsi iflasa uğrayıb. Bu isə öz növbəsində bütün Cənubi Qafqazda geosiyasi dinamikanın yeniləşməkdə olduğunu təsdiq edir. Məsələnin bu tərəfi çox əhəmiyyətlidir. Çünki sübut olunur ki, Cənubi Qafqazda kənardan olan sifarişlərlə baş verən inqilabların perspektivi yoxdur. Gec və ya tez onlar iflasa məhkumdurlar. Eyni zamanda, N.Paşinyanın iflasından sonra "erməni məxməri inqilabı", "erməni demokratiyası" kimi ifadələrin real məzmunu olmayan frazalar olması tam qəbul ediləcək.

Bunlar, əlbəttə ki, regionun geosiyasi mənzərəsinə yeni risklər və qeyri-müəyyənlik gətirə bilər. Bu səbəbdən region ölkələri hazır olmalıdırlar. Mümkündür ki, Ermənistanda yaranmış siyasi boşluqdan istifadə edərək, müəyyən dairələr təxribatlar törətsinlər. Bunun qarşısı alınmasa, bütövlükdə Cənubi Qafqazın taleyi sual altına düşmüş olar. Ermənistan növbəti dəfə regionda risk, təhlükə və radikal davranışlar mənbəyinə çevrilir. Görünür, burada güclü dövlətlərdən hansısa balanslaşdırıcı rolunu oynamalıdır. Bunu proseslərin gedişi göstərəcək.

**Newtimes.az**

# Ermənistan mətbuatı nə yazır?

## *"Hraparak": "Hakimiyyətdaxili gizli sorğuya görə, Paşinyanın reytinqi 45% aşağı düşüb"*

***"Məlum olduğu kimi, hakimiyyət siyasi güclərin və xadimlərin reytinqlərini müəyyən etmək niyyəti ilə, mütəmadi olaraq, daxili istifadə üçün gizli sosial sorğular keçirir". Bu barədə Ermənistanın "Hraparak" nəşri yazır.***

Qeyd olunduğuna görə, hakimiyyətin növbəti gizli sosioloji sorğusunda bəlli olub ki, baş nazir Nikol Paşinyanın reytinq göstəricisi 25%-ə enib. Lakin bu da, yalan məlumatdır. SİTAT: "Bizdə olan məlumata görə, həmin rəqəm həqiqəti əks etdirmir. Gizli rəsmi kanallar tərəfindən keçirilən sosial sorğuda Paşinyanın reytinqi 45 faiz civarında aşağı düşüb". Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətdə qohumbazlıq, tanış və dost prinsipinin problem olması barədə fikirləri erməni mətbuatında ona qarşı çevrilib. Belə ki, "Joxovurd" qəzetinin yazdığına görə, baş nazirin qohumu Sipan Paşinyan, arvadı Anna Akopyanın qardaşı Qraç Akopyanla yanaşı, adıçəkilən nəşrin diqqətini digər məsələlər də çəkib. Belə ki, hətta Paşinyanın qohumlarından başqa, onun dotr-tanışları da icraedici və qanunverici hakimiyyət strukturlarında təmsil olunmaqdadırlar.

O cümlədən, onun hökumətinin digər üzvləri də hakimiyyətdaxili mövqelərini həmin vasitə ilə tənzimləyirlər.

Parlamentin vitse-spikeri Lena Nazaryanla dövlət mülklərinin idarə olunması idarəsinin rəisi Narek Babayan ər-arvaddırlar. "Mənim addımım" fraksiyasının təmsilçisi və İrəvanın ağsaqqallar şurasının üzvü, hər kəsin qulağını dişləyib-qoparacağı hədəsini səsləndirən Navard Vardanyan həmin fraksiyanın digər təmsilçisi Sovinar Vardanyanın bacısıdır. Parlamentin "Mənim addımım" fraksiyasının deputatı Rapsime Qriqoryanın əri David Karapetyan parlamentin spikeri Ararat Mirzoyanın müşaviridir" deyə yazan "Joxovurd" əlavə edib ki, bənzər nümunələr kifayət qədərdir və bu məsələni gələcəkdə də ictimaiyyətin nəzərinə çatdırmaqda davam edəcək.

## "168 jam": "Putinin Ermənistana səfəri soyuq keçəcək"



Rusiyanın "Regnum" İnformasiya Agentliyinin baş redaktoru Modest Kolerov "168 jam" qəzeti ilə söhbətində Rusiyanın prezidenti Vladimir Putinin Ermənistana gözlənilən səfəri məsələsinə toxunub.

Bu barədə adıçəkilən qəzet yazır və qeyd edir ki, Kolerovun dediyinə görə, Putinin Ermənistana səfəri soyuq keçəcək: "Gəlin onu da nəzərə alaq ki, Putin Ermənistan Respublikasına səfər etmir, məqsəd Avrasiya İqtisadi İttifaqının Ali Şurasının iclasıdır. Yəni Avrasiya İqtisadi İttifaqının gündəliyi və qəbul edən tərəf özünün ikitərəfli gündəliyini təqdim etməlidir ki, ikitərəfli görüş olacaq, yoxsa ki, olmayacaq. Ermənistan tərəfinin dəqiq gündəlik formalaşdırması vacibdir".

Kolerov digər məqama da toxunaraq, bildirib ki, Rusiya erməni tərəfinin bu və ya digər bəyanatlarını rədd edir. "Kəşfiyyat barədə, Paşinyanla Mirzoyanın "Arstax Ermənistan deməkdir" kimi ismarıcları hansı mənanı daşıyır? Bu, danışıqlar prosesinin sonudur və 20 illik danışıqlar prosesi səhv idi" deyə Kolerov qeyd edib və belə bəyanatları boş ifadələrdir. O, həmçinin, deyib ki, bənzər bəyanatlardan sonra Moskvanın narahatlıq keçirməsi və əsəbiləşməsi təbiidir.

**RÖVŞƏN**

# Müxalifətin mitinq şousu baş tutmayacaq

***Müxalifətdaxili qarşıdurmalar fonunda, diqqətçəkən məqam ondan ibarətdir ki, "Milli Şura" deyilən qondarma qurum mitinq keçirmək xülyası ilə çıxış edir. Təbii ki, mitinq şousunun düzənlənməsində xarici amilin müstəsna rolu var. Çünki sakit və sabit bir dönəm də, hansısa aksiyanın keçirilməsinə ehtiyac duyulmazdır. Söhbət etdiyimiz müsahiblərimiz mitinq şousunun AXCP sədri Ə.Kərimlinin arzu və istəyi ilə planlaşdırılsa da, arxasında xarici məkrli qüvvələrin dayandığını bildirdilər.***

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: **"Müxalifət qüvvələri xalqın inamını itirmiş yalançılardır "**



- Mütəmadi olaraq, diqqət mərkəzində olmağa can atan müxalifət yenə də öz çirkin əməllərindən əl çəkmək istəmir. Hər zaman olduğu kimi, bu dəfə də aksiya keçirmək istəyinə düşən müxalifətin istəyi uğursuzluqla nəticələnəcəkdir. Çünki müxalifətin heç bir elektoratı yoxdur. Müxalifət hər zaman yersiz hərəkətlərə əl ataraq, xaricdən özlərinə dəstək axtarmaqla məşğul olub. Müxalif təmsilçilərinin özləri də çox gözəl bilirlər ki, onlara xalqımızın və cəmiyyətimizin heç bir siyasi dəstəyi yoxdur. Yaxşı olardı ki, müxalifət bu gün boş-boş hərəkətlərlə məşğul olmaqdandısa, fayda verəcək bir işlə məşğul olsun. Demək olar ki, müxalifət düşərgəsini təmsil edən bu insanlar özləri-özlərini aldatmaqla məşğul olurlar. Çünki bu şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayırlar. Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır.

TOHGMİB-nın sədri Emin Həsənli: **"Müxalifətin istəyi arzu olaraq qalacaq"**



- Əvvəlcədən bəllidir ki, müxalifətin keçirdiyi aksiyalar uğursuzluqla nəticələnəcək. Çünki onlar, bu illər ərzində, bir çox aksiyalar keçirib, amma hər dəfə də uğursuzluğa düçar olublar. Bu gün müxalifəti təmsil edən həmin şəxslər özlərini elə bir gülünc vəziyyətə salıblar ki, onların kütləvi aksiyalar keçirmək gücündə olmalarına şübhə edirəm. Belə olan halda da, müxalifət tərəfindən iddia edilən aksiyaların keçirilməsi mümkün olmayacaq. Demək olar ki, onlar tərəfindən keçirilən aksiyalara ancaq özlərinin qohum-əqrəbaları qatılır. Bir sözlə, yaxşı olardı ki, müxalifət aksiya keçirmək istəyindən əl çəksin. Onların hansısa uğur qazanmaq şansları sıfıra bərabərdir. Çünki həmin şəxsləri xalq dəstəkləmir. Ümumiyyətlə, istər daxili qüvvələrin, istərsə də xarici qüvvələrin ölkəmiz ilə bağlı planları baş tutmayacaq.

**GÜLYANƏ**

# AXCP-"Milli Şura" əcinnələr yuvası

*Mitinq keçirmək istəyi altında siyasi xaos niyyəti*

***Bu gün artıq siyasi meydanda tamamilə silinən və üzütüpürcəkli olan mitinq keçirmək istəyi altında siyasi xaos yaratmaq niyyətli əcinnələr yuvası olan AXCP-"Milli Şura" sentyabrın 28-də bələdiyyə seçkiləri ərəfəsi yenə ucuz şou, yenə artistlik, yenə də naxələflik edərək, mitinq keçirməklə, ölkədə qarmaqarışıq yaratmaq istədilər. Qozbeli qəbir düzəldər, əxlaqsız və mənəviyyatsız Ə.Kərimli ilə C.Həsənlini heç qəbir də düzəltməz.***

Bunu Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev "SƏS" qəzetinə açıqlamasında bildirib: "Nə qədər abırsız, həyasızdır, bu Ə.Kərimli. Dünən ətrafında olanların ailədaxili işlərinə qarışır, bu gün mitinq çağırışı edir: "Xəyanətkarlıq faktlarının sayı-hesabı olmayan bu əxlaqsız gəda əsl siyasi fahişədir. Hətta iddia edirəm və sübut etməyə də hazıram ki, bunların adamları qonşu ölkədə gizli danışıqlar apararaq, ölkəmizdə sabitliyi pozmağa yönəlmiş planlar düzməklə məşğuldur. Hər zaman demişəm, Ə.Kərimli stabil insan deyil, belə adamlara heç nədə etibar etmək olmaz. Elə bu günlərdə istefa verən müavini F.Qəhrəmanlının qadına zorakılıqda törətdiyi cinayətə dəstək olmaqla, bir daha Ə.Kərimli daha qatı cinayətkar olduğunu sübut etdi".

H.Hacıyev onu da vurğulayıb ki, Ə.Kərimli kimi siyasi fahişəliklə məşğul olduğunu dəfələrlə sübut edib: "Bu, o Ə.Kərimlidir ki, kim çox pul verərsə, həmin dairələrin qucaqlarına atılır. Özü də, məmnuniyyətlə. Qərb verəndə Qərbin, Şərq verəndə Şərqin, Şimal da verəndə, Şimalın qucağında özünü rahatlayır. Yəni bu əxlaqsız siyasətdə siyasi fahişə, siyasi pozğun deyirlər. Və bu gün mitinq keçirmək istəyi altında ölkədə siyasi xaos yaratmaq istəyir".



## Yalanlardan zəfər çələngi hazırlamaq...

Və bu gün cəmiyyətin nifrətini qazanan Ə.Kərimlinin cəmiyyəti arxasınca aparmaq iddiasına düşməsi, bax budur, əxlaqsızlıq, həyasızlıq. Nə hansısa qabiliyyətli bir mitinq iştirakçısı, nə hansısa müstəqil kütləvi tədbir seyrcisi iddia edə bilməz ki, bu qüvvələrin mitinqlərində hər zaman səmimiyyət olub. Səmimiyyət olmayıb. Çünki hər mitinq bir naməlum, bədxah niyyətli xarici çevrənin sifarişi, ya da hansısa ictimai-siyasi fəalın həbs olunmasından mənfəət xarakterli səbəblə reallaşdırılıb. Cəmiyyət özünü müxalifət çağıran qüvvələri əsl gerçəklik necədirsə, elə o cür tanıyır. Cəmiyyət bilir ki, Ə.Kərimli sosial bazasını itirib, illərdir, tükənə-tükənə gedir, dolğun, mükəmməl idarəçilik proqraması yoxdur və cinayətkarlar yuvası olan AXCP-"Milli Şura"da daim konfliktlər yaşanıb. Ə.Kərimlinin son mitinqdəki irəli çıxmaq, "liderliyi" ələ almağa yenidən cəhd göstərmək arzusu o qədər qabarıq oldu ki, bu, yaxın zamanlarda müxalifəti qarşılıqlı ittihamlar müstəvisinə mütləq çəkəcək. 24 ildir, belə deyilmi?

**R.HÜSEYNOVA**

# Fuad Qəhrəmanlı hansı günahını etiraf etdi- MƏHKƏMƏ



***Sentyabrın 26-da Abşeron rayon Məhkəməsində AXCP-nin keçmiş sədr müavini Fuad Qəhrəmanlının həyat yoldaşı Zümrüd Yağmurla boşanma məsələsi ilə bağlı məhkəmə iclası keçirilib. Hakim Elman Məmmədovun sədrliyi ilə keçirilən iclasa F.Qəhrəmanlının gəlməməsi səbəbindən, məhkəmənin işi təxirə salınıb. O zaman sual yaranır - F.Qəhrəmanlı məhkəməyə gəlməməklə, hansı günahını etiraf etdi?***

## Fuad Qəhrəmanlı ictimai qınaqdan qaçır

Qeyd edək ki, Z.Yağmur bu il avqustun 1-də nikahın pozulması və yetkinlik yaşına çatmayan övladının ananın yanında qalması ilə bağlı Abşeron rayon Məhkəməsində iddia qaldırıb. Z.Yağmur Qəhrəmanlının ailədə törətdiyi zorakılıqlardan, qızlarını necə incitməsindən, onun əlini, 6 yaşlı qızının isə dizini necə qırmasından danışıb. 2009-cu ilə qədər gözəl ailələrinin olduğunu deyən Z.Yağmur bildirib ki, hər şey Fuadın ona etdiyi xəyanətdən sonra başlayıb. Z.Yağmur, həmçinin, qızı Selcanın AXCP sədri Əli Kərimliyə olan nifrətinin də səbəbini açıqlayıb: "...Axı Əli Kərimli bilir ki, müavini evdə 3 nəfərə zülm eləyir. Barı onu sağ tərəfində saxlamasın. Bir dəfə desin ki, Fuad, ya evindəki problemləri həll elə, ya da müavinlikdən istefa ver".

Selcan Yağmur da yazısında vurğulayır ki, əslində, Ə.Kərimli və Fuad Qəhrəmanlını birləşdirən ortaq cəhət - zorakılıq, qadın hüquqlarına sayğısızlıqdır: "Ə.Kərimli hansı kişilikdən danışır. Özünü "ana" müxalifət partiyasının sədri sayan Ə.Kərimli tribunalarda insan haqlarından danışır və ona aman verməyən Fuad Qəhrəmanlı, hətta qadın haqları mövzusunda leksiya söyləyir. Belə olan halda, F.Qəhrəmanlı niyə məhkəməyə gəlməyib? Bəllidir ki, o, ifşa olunmasından və kəskin ictimai qınağın hədəfi olunacağından qorxub.

Qeyd edək ki, məhkəmənin işi növbəti iclasa qədər təxirə salındı.

**İ.ƏLİYEV**

# "Nar" tələbə və məzunlara karyera qurmaqda dəstək olur

***Hər zaman gənclərə və tələbələrin öz ixtisaslarına uyğun uğurlu karyera qurmalarına dəstək olan "Nar", Bakı Dövlət Universitetində keçirilən karyera sərgisində iştirak edib. "Karyerada ilk addım" adı altında keçirilən əmək yarmarkası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti və BDU-nun birgə təşkilatçılığı ilə baş tutub. "Nar" mövcud vakant iş yerləri haqqında məzun və tələbələrə məlumat verib və sənəd qəbulu təşkil edib. Bundan başqa, mobil operator universitetin tələbə və məzunlarına uğurlu karyera barədə məsləhətlər verib. Şirkət təmsilçiləri ilə birbaşa ünsiyyətdə olan tələbələr karyera imkanlarını dəyərləndirmək, həmçinin bu şirkətlərin təcrübə proqramlarında iştirak barədə məlumat əldə etmək imkanı qazanıblar. Sərgidə "Nar" stendinə maraq böyük olub.***




Tədbirdə tələbə və məzunlara 60 müəssisədən, ümumilikdə 360 vakant iş yeri təklif olunub. "Karyerada ilk addım" adlı aktiv məşğulluq tədbirləri tələbə və məzunların əmək bazarına çıxışının dəstəklənməsinə, onların işəgötürənlərlə ilkin əlaqələrinin qurulmasına xidmət edir.

Qeyd edək ki, gənclərə dəstək "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. "Nar"ın davamlı olaraq həyata keçirdiyi KSM layihələri haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə əhalisinin 97,5 %-ni əhatə edir və 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# 27 Sentyabr Beynəlxalq Turizm Günüdür





**Bu gün 27 Sentyabr Beynəlxalq Turizm Günü kimi qeyd olunur. 1980-cı ildən Birləşmiş Millətlər Beynəlxalq Turizm Təşkilatı 27 sentyabrı Beynəlxalq Turizm Günü kimi qeyd edir. Məqsəd beynəlxalq aləmdə turizm haqda məlumatlanmanı artırmaq və bunun sosial, mədəni, siyasi və iqtisadi tərəflərini dünya miqyasında nümayiş etdirməkdir. Hər il Beynəlxalq Turizm Günü müxtəlif şüarlar altında həyata keçirilir. Müasir dövrümüzdə dinc yanaşı yaşamaq uğrunda mübarizə aparan dünyada turizm körpülərinin qurulmasına və sülhün möhkəmlənməsinə səbəb ola bilər. Turizmin inkişaf prosesi qlobal həmrəyliyin formalaşmasına töhfələrini verir. BMT-nin Baş Assambleyasında təsdiq edilmiş ekoloji baxımdan təhlükəsiz və məsuliyyətli turizmin bu rəhbər prinsipləri zamanla yoxlanılmış turizm və sülh, insan haqları və qarşılıqlı anlaşma arasındakı əlaqəyə əsaslanır.**













## AZƏRBAYCANDA MİLLİ TURİZM KOMPLEKSİNİN RƏQABƏTƏ DAVAMLILIĞI YÜKSƏLDİLİB

Hər il Azərbaycanda 27 Sentyabr Ümumdünya Turizm Günü kimi qeyd olunur. Həmin gün təşkil olunan tədbirlər çərçivəsində, müxtəlif mövzularda - turizm sahəsində mövcud problemlər və onların həlli yollarının müzakirəsi, turizm sahəsində xidmət səviyyəsinin yaxşılaşdırılması, turizm infrastrukturunun yaradılması və s. mövzularında turizm konfransları da keçirilir. Reallaşan dövlət proqramları, həyata keçirilən islahatlar turizmin inkişafına səbəb olan amillərdir. Eyni zamanda, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları turizm siyasətinin həyata keçirilməsinə əsaslı dönüş yaradıb. Bu gün beynəlxalq aləmin dövlətimizə olan marağının miqyası daha da genişlənmiş, turizm sahəsində əldə olunan nailiyyətlər, həyata keçirilən dövlət proqramları, layihələr turizm sahəsində böyük uğurlara səbəb olub.

1999-cu ildə Ulu Öndər Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi. Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilib, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu.

## ÖLKƏ BAŞÇISININ TURİZM SAHƏSİNƏ AYIRDIĞI DİQQƏT AZƏRBAYCANIN BEYNƏLXALQ ARENADA TURİZM POTENSİALINI NÜMAYİŞ ETDİRMƏYƏ ŞƏRAİT YARADIR

Ölkədə baş verən inkişafın nəticəsidir ki, bu gün Azərbaycana dünyanın müxtəlif ökələrindən olan insanlar turist kimi səfər edirlər. Ölkə başçısının Azərbaycanda turizm sahəsinə ayırdığı diqqət və qayğı Azərbaycanın beynəlxalq arenada öz turizm potensialını nümayiş etdirməyə şərait yaradır. Bunun müqabilində Azərbaycana gələn turistlərin axını artır. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində, nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi.

Turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də, xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılması istiqamətində, ardıcıl olaraq, tədbirlər həyata keçirildi. Turist axını çox olan rayonlarda turist düşərgələrinin təşkil edilməsi, turizm sahəsində fəaliyyət göstərən orta və kiçik sahibkarlara dəstək məqsədi ilə təyinatlı və güzəştli kreditlərin ayrılması bu sahədə nailiyyətlərin əldə olunmasına səbəbdir.

Turizm sahəsində əməkdaşıq haqqında Hökumətlərarası Sazişlər də turizmin inkişafına təsirini göstərməkdədir. Belə ki, son illər ərzində Azərbaycanla Moldova, Belarus, Qətər, Yunanıstan, Qazaxıstan, İordaniya, Fransa, Tacikistan, Misir, Litva Respublikası və başqa dövlətlər arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişlər bağlanmışdır. İmzalanmış sazişlərin müddəalarının həyata keçirilməsi ilə əlaqədar, mütəmadi olaraq, tədbirlər görülür və digər ölkələr ilə turizm sahəsində ikitərəfli əlaqələrin qurulması istiqamətində müvafiq işlər aparır. Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı Krallığı, Avstriya Respublikası, Böyük Britaniya, İsrail, İran, Bəhreyn, Oman Sultanlığı, Macarıstan, Koreya, İsveçrə, Yaponiya, İndoneziya, Bruney Krallığı, Malayziya, San-Marino, Mərakeş, Argentina, Meksika, Makedoniya, İsveç, Filippin, Kuba və Xorvatiya arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş layihələri hazırlanmışdır. Çoxtərəfli əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsinin, turizm siyasətinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə alaraq, Azərbaycan beynəlxalq təşkilatlarla əlaqələrini möhkəmləndirir. Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyinin Turizm Şurası, Demokratiya və İqtisadi İnkişaf Naminə - GUAM təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarla Azərbaycan arasında təklif və layihələr hazırlanıb. Ən əsası isə, Azərbaycan Ümumdünya Turizm Təşkilatının üzvü kimi təşkilat tərəfindən təşkil edilən bir çox tədbirlərdə, o cümlədən, Baş Assambleyalarda, Avropa üzrə Komissiyanın iclaslarında, tədris kurslarında və seminarlarda iştirak edir.

Dövlət başçısının 2016-cı il 1 sentyabr tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına və 2016-cı il 6 dekabr tarixli "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiq edilməsi haqqında Fərmanına əsasən, ölkəmizin turizm sektorunun inkişafını təmin etmək məqsədilə, bir sıra mühüm işlər görülür. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə sektorun inkişafının dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksək keyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması xüsusi yer tutur.

Azərbaycan Prezidentinin imzaladığı "Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı da bu istiqamətdə görülən növbəti addım oldu. Görülən ardıcıl tədbirlərin nəticəsi olaraq, ölkəmizə səfər edən xarici turistlərin sayı artmaqdadır. Təkcə bu ilin avqust ayında Azərbaycana 361 min əcnəbi qonaq gəlib ki, bu da, 2018-ci ilin eyni dövrü ilə müqayisədə 42 min və ya 13,2 faiz artım deməkdir.

Turizm sahəsində olan uğurların davamlığının təminində, əlbəttə ki, ölkələr arasında birbaşa aviareysin açılması da mühüm faktorlardan biridir. Son illər Azərbaycanda turizm sənayesinin inkişafı istiqamətində atılan addımlar öz bəhrəsini verməkdədir. Yaradılan yeni turizm müəssisələri, xidmət səviyyəsinin yüksəldilməsi ölkəmizə gələn xarici turistlərin sayının da ildən-ilə artmasına təsirini göstərir. Bu, ölkəmizdə turizm sənayesinin inkişafının göstəricisidir.

Ölkənin, bütün sahələrində olduğu kimi, qeyri-neft sektorunun prioritet sahələrindən olan turizm sənayesində görülmüş məqsədyönlü tədbirlər nəticəsində, Azərbaycanda bu sektorun inkişafı üçün münbit şərait yaradılıb və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldilib.

***Zümrüd BAYRAMOVA***

# Sabiq müsavatçıdan partiya ilə bağlı bədbin proqnoz

*Azər Ayxan: "Müsavat partiyasının timsalında müxalifətin güclənməsi, toparlanması, reanimasiya olunması çox ciddi şübhələr doğurur"*

***Müsavat partiyasında qurultayöncəsi yaranmış acınacaqlı vəziyyət yalnız bu partiyanın hazırda üzvləri olan şəxslər arasında aktual mövzuya çevrilməyib, həmin mövzu zamanında bu partiyada təmsil olunmuş və hətta həmin siyasi təşkilatın fəaliyyətində aktivlikləri ilə seçilmiş insanlar tərəfindən də danışılır və müzakirə predmetinə çevrilir. Xüsusilə, başqanlığa, MNTK-ya, eləcə də, məclisə seçilmələri nəzərdə tutulan namizədlər arasında mövcud olan və əsəblərini tarıma çəkən vəziyyət də, belə qənaətə gəlməyə zəmin yaradır ki, növbəti qurultayda və qurultaydan sonrakı proseslərdə durum gərginləşəcək, hətta istefalara səbəb olacaq narazılıqlar da baş qaldıracaq. Bu kimi olaylar, bilavasitə partiyanın gələcək fəaliyyətinin uğursuzluq sindromundan çıxa bilməyəcəyi reallığını da ortaya qoymaqdadır.***

### "Sabiq müsavatçı: "Bəlkə də daha pis aqibət gözləyir Müsavatı bundan sonra"



Yeri gəlmişkən, partiyanın gələcəyi ilə bağlı çıxış edən "Yeni Müsavat" qəzetinin baş redaktorunun müavini, uzun illər Müsavat partiyasında fəallığı ilə seçilmiş Azər Ayxan çalışdığı mətbu orqanda maraqdoğurucu fikirlərini bölüşərək, müəyyən proqnozlarla çıxış edib. O, partiyada gedən prosesləri ara-sıra izləyir və başqanlığa namizədlərin iddialarının nə qədər həqiqətə uyğun olması ətrafında düşüncələrini bölüşür. Lakin partiyaya kimin başqan seçilməsinə baxmayaraq, bu siyasi təşkilatda hər hansı bir yeniliklərin və uğurların baş verəcəyini gözləməyə dəyməz: "Yeni iddiaçılar indidən deyirlər ki, başqan seçilsələr, Müsavatda ciddi dəyişikliklər olacaq. Uzun illər Müsavat partiyasının üzvü olmuş jurnalist, ictimai-siyasi fəal, adam kimi deyirəm ki, partiyanın başına yeni şəxsin gəlməsi heç bir keyfiyyət dəyişikliyinə səbəb olmayacaq. Bəlkə də daha pis aqibət gözləyir Müsavatı bundan sonra".

### "Öz əlləri ilə bu partiyanı darmadağın etdilər"

A.Ayxana görə, 2014-cü ildəki qurultayda baş verənlər Müsavatın parçalanması ilə nəticəsini tapdı və təşkilatın quruculuğunda iştirak edən əsas şəxslərin bir çoxu oradan ya uzaqlaşdırıldılar, ya da özləri istefa verib, oranı tərk etdilər. Gedənlərin isə əksəriyyətinin İ.Qəmbər, yaxud A.Hacılının israrları ilə uzaqlaşdırıldığına eyham vuran sabiq müsavatçı Müsavatın əvvəlki kimi, siyasi gündəmdə fəallığının geri qayıtmayacağını da, əminliklə ifadə edib: "2014-cü ildən sonra yaşananlar, baş verənlər Müsavat partiyasını bir neçə yerə böldü. Bu partiyanın özəyini təşkil edən, onun qurulmasında, güclənməsində, fəaliyyətində müstəsna xidmətlər göstərmiş şəxslər, ölkənin ciddi fikir adamları Müsavatdan ya özləri uzaqlaşdı, ya da yeni rəhbərliyin təkidi, keçmiş başqanın israrı ilə qurumdan xaric olundular. Partiyadan uzaqlaşdırılanlardan biri də, bu günlərdə dünyasını dəyişən mərhum Vurğun Əyyub oldu. O cümlədən, Qubad İbadoğlu kimi dəyərli elm adamı da Müsavat divanı tərəfindən xaric edildi. Öz əlləri ilə bu partiyanı darmadağın etdilər. İndən sonra bərpa etmək çətin və hətta mümkünsüz görünür".

### "Müsavatın vəziyyəti dəyişməyəcək"

"Hazırda Müsavat başqanlığına namizəd olanlardan T.Yaqublu və Y.Sadıqlının, yaxud A.Hacılının rəhbər olub-olmayacaqları vəziyyəti dəyişməyəcək" deyə qeyd edən siyasi yazar, əlavə edib ki, Müsavat partiyası əvvəlki gücünə qayıtmayacaq, ya da o zaman qayıda bilər ki, partiyadan ayrılmış tanınan siyasət adamları geri dönsünlər: "Bu da, real görünmür. Artıq hər kəs öz yoluna davam etməkdədir".

Maraqlı məqamlardan biri də, A.Ayxanın Müsavatın çıxış yolunun olmaması ətrafında yürütdüyü mülahizələrdir ki, o, burada daha bir neçə maraqlı nüanslara toxunub. İQTİBAS: "Vəziyyətdən çıxış yolu nədir" kimi suallar verilə bilər. Deyərdim ki, çıxış yolu, əslində, yoxdur. "Bu partiya muzeyəmi verilsin, yaxud buraxılsınmı" kimi suallar da var. Bunları da birmənalı cavablandırmaq çətindir. Amma hər halda, Azərbaycanın iki əsas müxalifət partiyasından biri olmuş Müsavatın əvvəlki gücünə qayıtması heç real görünmür".

### "O partiyanın, o siyasətçilərin sonu uçurumdur"

Siyasi yazar istər Müsavatın, istərsə də AXCP-nin belə bir ağır vəziyyətə düşmələrində, yalnız hakimiyyəti günahlandırmağı doğru hesab etmədiyini qeyd edib və köklü səbəblərin vaxtilə qəbul olunmuş yanlış siyasət olduğunu bildirib. Burada əsas səbəblərdən biri də, düşərgə daxilində partiyaların bir-birlərini həzm etməmək, ambisiyaların mövcudluğu, düşmənçilik mövqelərinin sərgilənməsi kimi iddiaları göstərilir: "Ən bağışlanmaz səhvlərdən biri müxalifətdaxili barışmaz mühitin olmasıdır. İllərlə davam edən bu proses sonda bu düşərgəni yeyib bitirdi. Müxalifət nə zaman birləşmək, güclənmək istəyib, daha böyük parçalanmalara və zəifləməyə məruz qalıb. Bu mühit çox dəhşətlidir. Uzun illər Müsavatın daxilindəki proseslərə yaxından bələd olan bir adam kimi deyirəm, o cür mənəvi mühit əvvəl-axır bu partiyaların, bu partiyalara rəhbərlik edən şəxslərin mənəvi-siyasi, həmçinin, ruhsal çöküşünə və böhranına səbəb olacaqdı. Bəzən deyirlər ki, siyasətdə nə mənəvi mühit? Bu, yanlış fikirdir. Siyasəti yaradan, onu təşkil edən insanlardır, şəxsiyyətlərdir. İnsanların mənəvi göstəriciləri olmasa, onların bir-biri ilə münasibətlərində əxlaq əsas yer tutmasa, o partiyanın, o siyasətçilərin sonu uçurumdur".

### "Tərəfdarlara qarşı bu cür saygısız davranış müxalifəti gücdən salan amillər sırasında yer aldı"

Yazısında digər amillərə və faktorlara da toxunan A.Ayxan müxalifət rəhbərlərinin öz tərəfdarlarına qarşı saygısız mövqe sərgiləmələrinin də partiyaların zəifləməsində köklü səbəb olduğunu qeyd edib. "Tərəfdarlara qarşı bu cür saygısız davranış müxalifəti gücdən salan amillər sırasında yer aldı" deyə xatırladan baş redaktorun müavini sonda bildirib ki, fədakarlıq azaldı və partiyalardan qopmalar artdı: "Bu üzdən də, görə-görə gəldiyimiz üçün, Müsavat partiyasının timsalında müxalifətin güclənməsi, toparlanması və reanimasiya olunması çox ciddi şübhələr doğurur".

A.Ayxanın qeydlərindən, həm də belə bir nəticə çıxarmaq olar ki, bu gün düşərgədə özlərini aparıcı müxalifət partiyaları kimi təqdim edən şəxslər, hətta bundan sonrakı cəhdlərində də heç bir siyasi uğurlara imza ata bilməyəcəklər.

**Rövşən RƏSULOV**

# Şər maşınının başağrıdan aləti - Əli Kərimli

*Yaxud haqq nazilər, amma üzülməz!*

***Hər yerdə zatı bəlli olmayanlar, nə edirlərsə-etsinlər, haqdan qaçmaq olmaz. Çünki naturasında xəyanət olan kəslər üçün satqınlıq etmək adi bir şeydir. Məhz bunun nəticəsidir ki, ağlı başında, əqidəsi bütöv olan heç kim satqınları sevməyib. Satqınlara yalnız satqınlar dəstək veriblər. Dünən AXCP sədrinin keçmiş müavini F.Qəhrəmanlının həyat yoldaşının Abşeron rayon məhkəməsinə gəlməməsi altında nələrin və kimlərin maraqları şübhəsizdir.***



Çünki bir çox dəlillər F.Qəhrəmanlı ilə Ə.Kərimlinin "ujas" filmlərindəki kimi amansız, sümükqıran qana susamışlardır. Bu da, real həqiqətdir ki, adətən, "mənəm-mənəm" deyənlər, özlərində olmayan xüsusiyyətlərdən danışırlar. F.Qəhrəmanlı kiimi: "Susmaq, təmkin nümayiş etdirmək, zorun tərəfində olmaq deməkdir. Mən heç zaman zorun tərəfində olmamışam və olmaq niyyətində də deyiləm".

Görək, Ə.Kərimli nə deyir: "Qadına və uşağa qarşı zorakılıq ailədaxili məsələ deyil. Bu bizim hamımıza toxunan məsələdir. Buna susmaq isə yolverilməzdir".

Nə qədər həyasızlıq və əxlaqsızlıqdır. Almaniyada yaşayan "Milli" ləqəbli E.Abdullayev də F.Qəhrəmanlını və onu himayə etməyə cəhd edən Əli Kərimlini sərt tənqid edərək, cinayətə bəraət qazandırdığı və zorakılığı dəstəklədiyi üçün AXCP sədrinin hamıdan üzr istəməsəni tələb edib: "AXCP sədrinin azadlıq, insan haqları, eləcə də, demokratiya haqqında danışmağa heç bir mənəvi haqqı yoxdur. Çünki bu iyrəncliyi dəstəkləyən, müdafiə edən Ə.Kərimli potensial cinayətkardır və totalitar düşüncəli məxluqdur. Biz azadlığı, ilk növbədə, gərək ailəmizdə qurmağı öyrənək. Öz ailəsində ailə üzvlərini döyəni hakimiyyətə gətirsək, bunlar bizi meydanlarda öldürərlər, dizlərimizi və barmaqlarımızı sındırarlar".

### Söyüş, təhqir və iyrəncliklər tökülən o ağızlar Əli Kərimlinin mənəviyyatıdır

Yenə də əxlaqsız və mənəviyyatsız Ə.Kərimli F.Qəhrəmanlının ailəsində baş verən zorakılığa dəstək olmaqla, görünür, bu dəfə əsl "mamarozalıq" etmək istəmişdir. Ə.Kərimli Z.Yağmura təsəlli verməklə, bir daha cinayətin başında elə özünün durduğunu sübut etmiş oldu. Bəli, nə qədər ikrah doğuran "boğazdan yuxarı" deyilən sözlərdir. Onun bir partiya daxilində yaratdığı diktatura, artıq çoxlarını bezdirib: "Bütün kişilər arvadlarını döyür", "Bu yaşdan sonra boşanıb, nə edəcəksən?!", "Dözmək lazımdır, yoxsa partiyanın adına ləkə gələr" kimi ikrah doğurucu fikirlərlə təzyiq edərək, faktiki ailədaxili zorakılığın gizli qalmasına, davam etməsinə rəvac vermək deməkdir. Yenə də öz şəxsi mənafeyi naminə, daha doğrusu, partiyanın xətrinə bir qadının və iki zavallı qızcığazın həyatının məhv olması, aldıqları cismanı və ən pisi, psixoloji zədələr isə Kərimlinin vecinə də deyil.

Əgər AXCP sədrinin ətrafındakılar susmamalı, üstlərinə yapışan Əli adını qoparmalıdırlar. Təşkilatda olan sağlam fikirli insanlar sübut etməlidirlər ki, AXCP - Ə.Kərimli demək deyil və partiyadaxili avtoritarizmdən qurtulmalıdırlar.

Bu gün küçə ritorikasından uzaqlaşa bilməyən Ə.Kərimli kimlərin şüurları bundan sonra da dəyişməyəcək. Necə deyərlər, 40-ında öyrənən, gorunda çalar. Bir də yalan, böhtan, absurd iddialar və çılğın çağırışlar siyasət deyil. Ancaq bir də insan cinayət törədib, onu gizlətməklə, cəzadan yayına bilər. Amma o cinayətin qorxusunu sonuna qədər yaşamağa məhkumdur.

Fransız psixoloqu Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu, sistemli şəkildə davamlı olur və ətraf mühitə ikrah yaranır. Bu məntiqlə yanaşsaq, aydın olur ki, bu gün Ə.Kərimli illərdi ki, eyni mühitdə qalıb, zaman-zaman xəyanət edib və demək olar ki, artıq bir periodiklik yaranıb ki, bunun qarşısını almaq, sadəcə, mümkünsüdür. Çünki Ə.Kərimli kimi əxlaqsızlar anadan olduğu gündən bu günə kimi getdiyi yol əyri olduğu üçün, zaman-zaman cinayətləri də saysız-hesabsız olub. Ona görə də, belələri yaxın zamanlarda cinayət kürsüsünə oturub, etdikləri satqınlığa və cinayətlərinə görə, xalq qarşısında cavab verəcəklər.

**Rəfiqə HÜSEYNOVA**

# İnsan hüquqlarına beynəlxalq hörmət prinsipi

***Universal konseptual səviyyəyə tam yüksəlməsələr də, insan hüquqlarına beynəlxalq hörmət prinsiplərinin əlamətləri bir çox müvafiq sənədlərdə müşahidə olunmuşdur. Daşqın Qəmbərov qeyd edir ki, bu sənədlər sonrakı dövrlərdə insan hüquqlarının qorunmasının normativ əsaslarının inkişafı üçün bir növ təkan rolunu oynamışlar.***

İnsan hüquqlarına və əsas azadlıqlarına beynəlxalq hörmət prinsipinin formalaşması İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf etmişdir. Belə ki, BMT qətnaməsinin qəbulu və beynəlxalq-hüquqi prinsiplər içərisində olduqca mühüm yerə malik olan bu prinsipin formalaşması prosesi birbaşa əlaqəlidir. Bu məqamda, qeyd etmək yerinə düşərdi ki, beynəlxalq hüquq prinsipləri özünün bir sıra xüsusiyyətləri ilə səciyyələnir. Bildiyimiz kimi, müasir beynəlxalq hüququn əsas prinsipləri nə fərdi, nə də kollektiv formada dövlətlər tərəfindən ləğv oluna bilməzlər. Beynəlxalq hüquq prinsiplərinə əməl etmək bütün beynəlxalq münasibətlər iştirakçılarının mühüm öhtəliyidir. Beynəlxalq hüquq prinsipləri, hətta bu və ya digər səbəbdən, konkret normalarla tənzimləyən sahələrdə də təsir gücünə malikdir. Müvafiq olaraq, beynəlxalq hüquq prinsiplərinə əməl etməmək istiqamətində istənilən cəhd yolverilməzdir. Çünki bu, birbaşa dövlətlərarası münasibətlərə ciddi təsir edə bilər. Bu baxımdan, insan hüquqlarına beynəlxalq hörmət prinsipinin formalaşması insan hüquqlarının səmərəli qorunmasının təminatı rolunda çıxış edir. Belə ki, yuxarıda nəzərdən keçirdiyimiz məqamdan da aydın olduğu kimi, bir dövlət daxilində insan hüquqlarına hörmətsiz yanaşma və bu hüquqların pozulması digər dövlətlərin kəskin reaksiyasına səbəb ola bilər.

D.Qəmbərov yazır: "Göründüyü kimi, insan hüquqlarına beynəlxalq hörmət prinsipinin həm də müəyyən səviyyədə dövlətlərarası münasibətləri tənzimləmə gücü mövcuddur. Bu prinsip, artıq qeyd etdiyimiz kimi, ən mühüm beynəlxalq-hüquqi prinsiplərdəndir. İnsan hüquqlarına beynəlxalq və ya ümumi hörmət prinsipi mahiyyəti dövlətlərarası dostluq və əmkdaşlıq münasibətlərinə aid Beynəlxalq Hüquq Prinsipləri haqqında Deklarasiyada açılmışdır. Bu deklarasiya BMT Qətnaməsinə uyğun olaraq, 24 oktyabr 1970-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul olunmuşdur. Bundan başqa, 1975-ci ilin avqustunda qəbul olunmuş Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin yekun aktında da prinsiplər deklarasiyası əks olunmuşdur. Dövlətlər özlərinin qarşılıqlı münasibətlərində, məhz bu prinsiplərə əsaslanırlar."

Lous Henkin yazır: "Beləliklə, insan hüquqlarına beynəlxalq hörmət prinsiplərinin formalaşmasının BMT Qətnaməsinin qəbulu ilə birbaşa bağlı olduğunu əsaslandırmaq üçün kifayət qədər arqumentlər mövcuddur. BMT Əsasnaməsində, ilk dəfə olaraq, dövlətlərin insan hüquqlarına hörmətlə yanaşmalarını öhtəlik kimi müəyyənləşdirən universal norma təsbit olunmuşdur. BMT Əsasnaməsinin 55-ci maddəsinə əsasən, dövlətlər irqindən, cinsindən və dinindən asılı olmayaraq, insan hüquq və əsas azadlıqlarına ümumi hörmət və onların qorunması ılə bağlı öhtəlik götürürlər. 56-cı maddədə isə, BMT-yə üzv olan bütün dövlətlərin insan hüquqlarının qorunması sahəsində təşkilatla əməkdaşlıq etmələri ilə bağlı öhtəliklərinin olduğu qeyd edilir". F.Mehdiyev qeyd edir ki, elə bu məqam tam təsdiq edir ki, Birləşmiş Millətlər Təşkilatı yarandığı gündən özünün prioriteti kimi, məhz insan hüquqlarının qorunmasını müəyyənləşdirmişdir.

Qeyd edək ki, insan hüquqlarına ümumi hörmət prinsipi 1948-ci ildə qəbul olunmuş Ümumi İnsan Hüquqları Deklarasiyasında, 1966-cı ildə qəbul olunmuş Vətəndaş və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda konkretləşmişdir. Təbii ki, insan hüquqlarına ümumi və ya beynəlxalq hörmət prinsipi, həmçinin, onlarla digər beynəlxalq-hüquqi aktlarda əks olunmuşdur. İnsan hüquqlarına ümumi hörmət prinsipinin regional təşkilatlar üçün də prioritet olduğunu müəyyənləşdirmək çətin deyildir. 1949-cu ildə qəbul olunmuş Avropa Şurası Əsasnaməsinə əsasən, yalnız insan hüquq və azadlıqlarının qorunmasının normativ-hüquqi əsaslarının mövcud olduğu və bu hüquqlara real hörmətin olduğu dövlətlər təşkilata üzv ola bilərlər. Ümumiyyətlə, insan hüquqlarına beynəlxalq hörmət prinsipi, deməkolar ki, bütün regional təşkilatların Əsasnamələrində, öz əksini tapmışdır. Məsələn, Müstəqil Dövlətlər Birliyinin əsasnaməsində qurumun başlıca məqsədlərindən biri kimi, ümumi qəbul olunmuş prinsiplər və beynəlxalq hüquq normalarına müvafiq olaraq, insan hüquq və azadlıqlarının təmin olunması qeyd edilmişdir. MDB Əsasnaməsinin dördüncü maddəsinə əsasən, insan hüquq və azadlıqlarının təmin olunması təşkilata üzv dövlətlərin birgə fəaliyyət sahəsinə aid edilir.

İnsan hüquqlarına ümumi və beynəlxalq hörmət prinsipinin formalaşması insan hüquq və azadlıqlarının qorunması sahəsində irəliyə doğru ciddi addım hesab oluna bilər. Belə ki, insan hüquqlarına beynəlxalq hörmət prinsipinə əsasən, insan hüquq və azadlıqlarının qorunması məsələsi, artıq dövlətin daxili işi kimi nəzərdən keçirilmir. Q.İ.Tunkin göstərir ki, əsas insan hüquq və azadlıqlarına hörmət prinsipi insan hüquqlarının qorunması sahəsində beynəlxalq standartların gözlənilməsi və bu sahədə əməkdaşlığın edilməsi ilə bağlı dövlətlərin üzərinə öhtəliklər qoyur. Ən əsası isə, bu prinsip insan hüquq və azadlıqlarının qorunması sahəsində dövlətlər arasında qarşılıqlı nəzarəti nəzərdə tutur. Lakin həmçinin, qeyd etmək lazımdır ki, insan hüquqlarına beynəlxalq hörmət prinsipi beynəlxalq hüququn digər prinsipinə qarşı qoyulmur. Məsələn, belə prinsiplərdən dövlət suverenliyinə hörmət, biri-birilərinin işlərinə qarışmamaq və s. qeyd etmək olar. Beynəlxalq Məhkəmənin Nizamnaməsinin 38-ci maddəsinə əsasən, sivil dünya tərfindən qəbul olunmuş digər prinsiplər kimi insan hüquqlarına beynəlxalq hörmət prinsipi də müqavilə normaları və ənənələrlə yanaşı, beynəlxalq hüququn əsas mənbəyi hüqunda çıxış edir. Müvafiq istiqamətdə qərarların qəbulu zamanı Beynəlxalq Məhkəmə digər prinsiplərlə yanaşı, insan hüquqlarına beynəlxalq hörmət prinsipini də tətbiq edir.

Beləliklə, İkinci Dünya müharibəsindən sonra öz təsdiqini tapmış insan hüquqlarına beynəlxalq hörmət prinsipi həm beynəlxalq hüququn, həm də konstitusiya hüququnun ən vacib prinsiplərindən biri kimi nəzərdən keçirilmişdir. İnsan hüquq və azadlıqlarına beynəlxalq hörmət prinsipi beynəlxalq hüququn yeni istiqamətinin yaranmasını şərtləndirmişdir. Bu istiqamət irqindən, dinindən, dilindən, cinsindən asılı olmayaraq, bütün insanların əsas hüquq və azadlıqlarının təmin olunması üzrə öhdəliklərini müəyyənləşdirir.

İnsan hüquqlarının beynəlmilləşməsi təkcə qlobal müstəvidə müvafiq normaların yaradılması ilə müşayiət olunmadı. Dünya dövlətlərində insan hüquqlarının təmin olunmasını nəzarətdə saxlayan prosedur da meydana gəldi. Xüsusilə, insan hüquqları ilə bağlı məlum paktların qəbul olunmasından sonra insan hüquqlarına hörmətlə yanaşılmasının vacibliyi ilə bağlı təsəvvürlər daha da möhkəmlənir. İnsan hüquqlarına beynəlxalq səviyyədə hörmətlə yanaşılmasının təzahürü özünü, hər şeydən öncə, bu hüquqların həyata keçirilməsinə və ya gözlənilməsinə nəzarət edilməsi məsələsinə xüsusi diqqət yetirilməsində göstərir. Ümumiyyətlə, insan hüquqlarının qorunması mexanizmlərinin beynəlxalq səviyyədə təkmilləşdirilməsinin diqqət mərkəzində olması bu sahədə yaxşı nəticələrin əldə olunmasının təminatı rolunda çıxış edir. Artıq qeyd etdiyimiz kimi, ötən əsrdə baş vermiş müharibələr nəticəsində, insan hüquqlarının kütləvi və kəskin şəkildə pozulması bu problemə beynəlxalq həssaslığın əhəmiyyətli dərəcədə artmasını şərtləndirmişdir.

Beynəlxalq-hüquqi sənədlərdə müasir demokratik cəmiyyətin normalarına müvafiq etalonların uzunmüddətli formalaşması prosesinin nəticəsi olan insan hüquqlarının müəyyən standartları əks olunmuşdur. Müasir dünyamızda müşahidə olunan səciyyəvi cəhət ondan ibarətdir ki, insan və vətəndaş hüquqlarının genişlənməsi həm milli, həm də beynəlxalq hüquq normalarının inkişafı nəticəsində baş verir. Bu, ikitərəfli olmaqla, qanunvericiliklərin qarşılıqlı şəkildə zənginləşməsini təmin edir və insan hüquqlarının yeni səviyyəyə qalxmasına imkan verir. Məhz bunun nəticəsidir ki, hazırkı mərhələdə insan hüquqları milli çərçivədən xeyli kənara çıxaraq, beynəlxalq əhəmiyyət kəsb etməkdədir. İnsan hüquqlarının prioriteti Avropa və universal hüquqi sənədlərdə əksini tapmışdır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***







*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs



## İlk ərəb astronavt üçün namaz və orucla bağlı müəmmalar yaranıb




Sentyabrın 25-də Qazaxıstandakı Baykonur kosmodromundan kosmosa göndərilən və göyərtəsində ilk ərəb astronavtın da olduğu "Soyuz-15" gəmisi Beynəlxalq Kosmik Stansiyaya (BKS) birləşib. AZƏRTAC "Khaleej Times" qəzetinə istinadla xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ilk astronavtı Həzaa əl-Mənsuri üçün BKS-də namaz və oruc vaxtları müəyyən edilib.

Qəzetin xəbərində qeyd olunub ki, BƏƏ-nin İslam Məsələləri və Xeyriyyəçilik Departamenti BKS-də müsəlman astronavtların ibadət və oruc vaxtlarının daxil olduğu davranış kitabını da məhdud tirajla nəşr etdirib. Məsələ ondadır ki, Yerdən təxminən 350 kilometr yüksəklikdə yerləşən kosmik stansiya orbit üzrə saatda 27700 kilometr sürətlə hərəkət edir və bizim planetin ətrafında sutkada 15,5 dövrə vurur. Bu səbəbdən astronavtlar 24 saat ərzində Günəşin 16 doğuşu və qürubunun şahidi olurlar. Ümumilikdə, Yer meyarı ilə günəşin doğuşu və qürubu arasındakı bir gün BKS-nin bir dövrəsinin başa çatdığı 92 dəqiqəyə bərabərdir.

Lakin ərəb astronavt çox maraqlı bir problemlə üzləşib: bütün bu meyarların fonunda hər 1,5 saatdan bir və müsəlman şəxsin gündə beş dəfə ibadət etdiyini nəzərə alsaq, onda əl-Mənsuri 24 saat ərzində 80 dəfə namaz qılmalıdır. Digər mühüm məsələ isə qiblənin müəyyən edilməsidir. BKS-nin daim hərəkətdə olduğu nəzərə alınarsa, Kəbənin istiqamətini müəyyən etmək mümkün deyil. Oruca gəldikdə isə, burada da kosmik zamanla ayaqlaşmaq tamamilə imkansızdır. Belə ki, kosmosda BKS-nin hərəkət sürəti zamanı gecə ilə gündüz tez-tez bir-birini əvəz edir.

"Khaleej Times" öyrənib ki, astronavtlara özləri ilə 680 qram şəxsi əşya götürməyə icazə verilib. BƏƏ astronavt özü ilə müqəddəs Quran, dövlət bayrağı və səhrada bitən qaf ağacının 30 ədəd toxumunu, ailə fotoşəkillərini, ölkənin ilk Prezidentinin portretini və Dubay Əmirinin kitabını götürüb.

## Soyğunçuluq və oğurluq edən şəxslər tutulub




Daxili işlər orqanlarının əməkdaşları oğurluqla məşğul olan şəxslərin tutulması istiqamətində uğurlu əməliyyat tədbirlərini davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 25-də metronun "Elmlər Akademiyası" stansiyasının platformasında şəxsiyyəti məlum olmayan üç nəfər Sabirabad rayon sakini H.Bağırlını aldadıb mobil telefonunu alıb. Metropolitendə polis şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Mingəçevir şəhər sakini M.Səmədov, Ağdam rayon sakinləri E.Bəşirov və C.Mustafayev yaxalanıb.

Binəqədi Rayon Polis İdarəsinin 6-cı polis bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində sentyabrın 26-da Biləcəri qəsəbəsindəki mağazaların birindən 1000 manat dəyərində inşaat materiallarını oğurlamaqda şübhəli bilinən qəsəbə sakini F.Şirinov saxlanılıb. Hər üç faktla bağlı araşdırmalar aparılır.

## Hindistanda şiddətli yağışlar 17 nəfərin ölümünə səbəb olub

Hindistanın Puna rayonunda davam edən şiddətli yağışlar 17 nəfərin ölümünə, bir neçə nəfərin itkin düşməsinə səbəb olub. AZƏRTAC Hindistan KİV-lərinə istinadla xəbər verir ki, rayonun Baramati şəhərində təbii fəlakətin yaratdığı fəsadlara, o cümlədən sel və daşqınlara görə 15 min nəfər təxliyə edilib. Şəhərin elektrik təchizatı dayandırılıb, binalara ciddi ziyan dəyib, minlərlə avtomobil ya su altında qalıb, ya da daşqın suları onları yararsız hala salıb. Bundan başqa, çox sayda ev heyvanlarını daşqın aparıb. Təbii fəlakət nəticəsində ölənlərin sayının çoxalma ehtimalı böyükdür.

## ELAN

ADPU-nun Təsviri İncəsənət ixtisası üzrə II kurs tələbəsi Əhmədova Aynurə Vüqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Cüdoçumuz dünya çempionatının finalına yüksəlib



Qazaxıstanın Almatı şəhərində kadetlər arasında cüdo üzrə dünya çempionatı davam edir. SİA-nın məlumatına görə, yarışın ikinci günündə idmançımız Kamran Süleymanov (60 kq) otuzikidəbir finalda braziliyalı Felipe Limanı məğlub edib. Növbəti mərhələdə ukraynalı Vladislav Kazimirovu üstələyən cüdoçumuz səkkizdəbir finalda ermənistanlı Styopa Darbinyanı məğlubiyyətə uğradıb. Dörddəbir finalda Qazaxıstan təmsilçisi Marlen Adilə qalib gələn K.Süleymanov yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə onun rəqibi qırğızıstanlı Çingizxan Saqinaliyev olub. Cüdoçumuz rəqibini ipponla məğlub edərək finala yüksəlib.

Bu çəki dərəcəsində mübarizəyə aparan digər cüdoçumuz Turan Bayramov onaltıdabir finalda italiyalı Simone Aversanı məğlub edib. Səkkizdəbirdə Monqolustan təmsilçisi Bulqantamir Davadorju üstələyən T.Bayramov növbəti görüşündə qazaxıstanlı Nursultan Zaizaqaliyevə qalib gələ bilməyib. Lakin cüdoçumuz təsəlliverici görüşdə kiprli Georgios Balarjişvilini mübarizədən kənarlaşdırıb. T.Bayramov bürünc medal uğrunda qarşılaşmada qırğızıstanlı Çingizxan Saqinaliyev ilə üz-üzə gələcək. Qeyd edək ki, çempionatda ölkəmizi 18 cüdoçu təmsil edir.

## Nurməhəmmədovun rəqibi kim olacaq?



Mütləq döyüş çempionatının (UFC) rusiyalı qalibi Həbib Nurməhəmmədovun növbəti döyüşünün vaxtı müəyyənləşib. SİA-nın məlumatına görə, bu barədə idmançının meneceri Rizvan Maqomedov bildirib. O deyib ki, Nurməhəmmədov növbəti görüşünü 2020-ci ilin mart və ya aprel ayında keçirəcək. Döyüşün keçiriləcəyi yer isə hələlik müzakirə olunmayıb. Daha əvvəl Nurməhəmmədovun növbəti rəqibi Toni Ferquson ola biləcəyi bildirilmişdi. Ancaq rusiyalı menecer Ali Abdel-Aziz, növbəti döyüşdə 31 yaşlı Həbibin kanadalı Ceorces Saint-Pierre ilə görüşəcəyini söylədi. UFC rəhbəri Dana Uayt bu mübarizəni təşkil etməyə hazır olduğunu bildirdi. Konor Makqreqorun Nurməhəmmədovla yenidən oyun keçirmək istədiyi də qeyd edildi. Ötən ilin oktyabrında UFC 229 turnirində İrlandiyalı Rusiyalı idmançıya məğlub olmuşdu. Qeyd edək ki, Həbib Nurməhəmmədov sentyabrın 7-də ABŞ idmançısı Dastin Poryeni məğlub edərək UFC titulunu özündə saxlayıb. 31 yaşlı idmançının 28 qələbəsi var. O, hələlik məğlubiyyətlə üzləşməyib.

## "Barselona" "Qrizmann məsələsi"nə görə 300 avro cərimələndi!



İspaniyanın Futbol Federasiyasının Rəqabət Komitəsi "Barselona" futbol klubunu "Qrizmann məsələsi"nə görə 300 avro həcmində cərimələyib. Belə ki, "Barselona" futbol klubu sonuncu transfer bazarında forvard Qrizmann üçün 120 milyon avro ödəyib. Qrizmannın bundan əvvəlki klubu olan "Atletiko" məhkəməyə müraciət edərək, danışıqların yalnız oyunçunun özü ilə aparıldığını, cəmi 120 milyon avro ödəniləcəyi barədə yalnız onunla razılığa gəlinməsini bildirib. Sazişdə transfer üçün məbləğ 200 milyon avro təşkil edib. Komitə öz məktubunda "oyunçunun intizam məsuliyyətinin olmamasını" bəyan edir, "cərimənin rəmzi xarakter daşıdığını və bunun "Barselona"ya və digər klublara gələcəkdə analoji pozuntulara yol verməkdə mane olmayacağını etiraf edir".

## Bu gün atletika üzrə dünya çempionatına start veriləcək




Sentyabrın 27-də Qətərin paytaxtı Dohada keçiriləcək atletika üzrə dünya çempionatına start veriləcək. Mundialda 209 ölkədən 1928 idmançı iştirak edəcək. Bu atletlərin 1039-u kişi, 889-u qadındır. Ötən il keçirilən dünya çempionatında qalib olan 44 atletdən 38-i bu il bir daha gücünü sınayacaq.

Dünya çempionatında ölkəmizi baş məşqçi Bəhruz Salehlinin rəhbərliyi altında Nazim Babayev, Aleksis Kopello (üçtəkanla tullanma), Anna Skidan (çəkicatma) və Evans Kiplaqat (marafon) təmsil edəcəklər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**